# ADP Rusiyanı sülh sazişinə əngəl olmaqda ittiham edir

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№38 (3329) 8 Oktyabr / 2024-cü il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik

**ANA XƏBƏR**




## İşə düzəltmək adı ilə "İnstagram"da yüzlərlə insanı aldatdı...

# 7 il ərzində dövlətdən 27 milyard oğurladılar

Dövlət büdcəsini talan edən Fərəməz və Qalib Məmmədov qardaşları haqda cinayət işi 20 ildən çoxdur açıq saxlanılır...

## Saxta deputatların Rusiyaya "sədaqət andı"



8-9

**GÜNÜN NƏBZİ**

Müsahibə

### "Özəl reabilitasiya mərkəzlərini bağlamaqdansa, onlara dəstək verilməlidir"



İlqar Ağayev: "Ən pis fəaliyyət göstərən reabilitasiya mərkəzini belə, bağlamaq olmaz"

12

Ölkə

### ANAMA-nın şübhəli tenderləri, milyonluq maxinasiyaları

Və yaxud agentlik elan etdiyi tenderin qalibi olan şirkətlərin pulunu niyə vermir?

6

Xəbər

### Bakı Şəhər Prokurorluğunda şok saxtakarlıq

Baş prokurorun birinci müavini Elçin Məmmədovun qərarını kim və necə ləğv edib?

2

Toplum

### Mübariz Əkbərova qarşı şok ittihamlar

Apellyasiya Məhkəməsinin sədri şəhid ailəsinin 3 üzvünü həbs etdirib?

12

Xəbər

### Vətəndaşları xaricdə iş düzəltmək adı ilə aldadıb, Kanadaya qaçdı

2

Şikayət

### Kürdəmirə getmək üçün Bakıdan yola düşdü, 8 ildir bir xəbər yoxdur



Şəmsəddin Əliyev: "Əgər qohumlardan onu kiminsə görməsi ehtimalları varsa, iş təzələnə bilər"

10

Xəbər

### Narkotikin dəhşətli fəsadları



Androloq Azər Mirzəyev: "Azərbaycanda yeni ailə quran hər 10 nəfərdən 5-də cinsi zəiflik halları müşahidə olunur"

11

Sərbəst

## "Bəstəkar ilk növbədə öz xalqına xidmət etməlidir"

Aydın K.Azim: "Qarayev 20-ci əsrdən bu günə yetişmiş bəstəkarlarımızın ən intellektualıdır"

Bu günlərdə böyük bəstəkarımız Qara Qarayevin Ev Muzeyində ünlü bəstəkar, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Bəstəkarlıq kafedrasının müdiri, Əməkdar incəsənət xadimi Aydın K.Azimlə görüş baş tutdu. Salona Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində yaradılmış "Klassik musiqi həvəskarları klubu"nun üzvləri yığışmış, musiqiçilər təşrif buyurmuşdu.

13

Baxış

## Ay gidi dünya

...salıb bir manatını itirir, "hayıf o bir manatdan..." deyib, az qala bir gün vaysınır, amma göz önündəcə adamlığını itirir, heç vecinə də almır

Yəqin ki, çoxlarının yadındadı... Əvvəllər "sürü" deyəndə, bunu qoyun, ya da iribuynuzlu heyvan sürüsü kimi başa düşürdük. Lakin son zamanlar nə oldusa, nələr baş verdisə, sürünün həm çeşidləri artdı, həm də fonetik transkripsiyası dəyişildi. Misal üçün, - yaltaq sürüsü, troll sürüsü, məmur sürüsü. Yaxud qorxaqlar, yalançılar, riyakarlar, korrupsionerlər, rüşvətxorlar, işverənlər, qulbeçələr, dələduzlar və sairələr sürüsü...

4

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№38 (3329) 8 Oktyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

Əyləncə səhifəsi

## Cərrah xəstəni meyvə doğradığı bıçaqla əməliyyat etdi

Steril neştər tapa bilməyən həkim xəstənin həyatını xilas etmək üçün doğaclama alətdən istifadə etmək qərarına gəlib



**İngiltərədə tibb ictimaiyyətini şoka salan qeyri-adi hadisə baş verib. Sussex NHS Foundation Trust Universitet Xəstəxanasının cərrahı əvvəllər nahar üçün meyvə doğramaq üçün istifadə etdiyi İsveçrə ordusu bıçağından istifadə edərək təcili əməliyyat keçirib.**

Lent.az-ın xarici KİV-ə istinadən bildirdiyinə görə, təcili əməliyyata ehtiyacı olan xəstənin qəflətən ürəyi dayanıb və steril neştər tapa bilməyən həkim onun həyatını xilas etmək üçün doğaclama alətdən istifadə etmək qərarına gəlib.

Hadisə 2023-cü ilin dekabrında baş verib. Qeyri-adi şəraitə baxmayaraq, xəstə sağ qalıb və baş verənləri cərrah özü bildirib. Fondun baş tibb işçisi, professor Ketrin Urç bildirib ki, xəstənin həyatı xilas edilsə də, cərrahın hərəkətləri standart prosedurlardan kənardır və buna ehtiyac olmamalı idi.

Vəziyyət ekspertlərin kəskin şərhlərinə səbəb olub. Klinik səhlənkarlıq üzrə ekspert, professor Qrem Poston steril olmayan qatlanan bıçağın istifadəsinin bütün tibbi standartlara zidd olduğunu bildirərək təəccüb və qəzəbləndiyini bildirib. Hadisədən xəbərdar olan xəstə də şoka düşüb və xəstələri təmsil edən vəkil Nişa Şarma hadisəni dəhşətli adlandırıb.

Gələcəkdə oxşar hadisələrin baş verməməsi üçün xəstəxana daxili araşdırma aparır.

# Lukaşenko uşaqlıqdan inək sağırmış...





**Belarus prezidenti Aleksandr Lukaşenkonun sinif rəhbəri məktəb illərindən danışıb. Müəllim Tatyana Karpeçenko 35 il Aleksandriysk orta məktəbində riyaziyyatdan dərs deyib və onun şagirdləri arasında Aleksandr Lukaşenko da olub.**

Tatyana Karpeçenko 2024-cü ilin yanvarında 100 yaşını qeyd edib və onun pedaqoji təcrübəsi 40 ildən çoxdur. O, dörd il həm də Belarusun gələcək prezidentinin sinif rəhbəri olub. Onlar 1965-ci ildə tanış olublar.

-Saşa o vaxt 5 "A" sinfində oxuyurdu. Uzun boylu oğlan idi. Həmişə səliqəli geyinib: kostyum və qalstuk ütülü. Uşaqlıqdan işləməyə - şum arxasında gəzməyə, ot biçməyə, odun doğramağa, hətta inək sağmağa öyrəşmişdi", - müəllim xatırlayır.

O, Aleksandr Lukaşenkonun bütün məktəb tədbirlərində iştirak etdiyini və yaxşı oxuduğunu söyləyib:

- O, esse və ekspozisiyaları gözəl yazır, təfəkkürə və gözəl yaddaşa malik idi. Sosial elmdə onun tayı-bərabəri yox idi. Müəllimlərlə birlikdə valideyn iclaslarına gedir, bizim əvəzimizə ölkədəki və xaricdəki vəziyyətlə bağlı mühazirələr oxuyurdu.

Vaxt keçdi və Moqilyov Pedaqoji İnstitutunu bitirdikdən sonra Aleksandr Lukaşenko doğma məktəbinə tarix və ictimai elmlər müəllimi kimi qayıtdı.

"Və o, bizimlə müəllimlik təcrübəsini etdi", - Tatyana Karpeçenko deyib. - Bilikli, savadlı, müstəsna yaddaş. Həmişə bir şey oxuyurdu: hətta kitab yığını olan işçilər otağında fasilə zamanı.

Müəllim prezident seçkilərinin keçirildiyi 1994-cü ili də xatırlayıb.

Çoxları Kebiç üçün kampaniya aparırdılar. Tələbəmə inandım! Mən onun əleyhinə necə səs verə bilərdim? "Bu, özünüzə qarşı səs verməklə bərabər olardı", - Tatyana Karpeçenko deyib. - Mən də 2020-ci ili xatırlayıram. Etiraf edim ki, oğlum kimi narahat idim. Prezidentlik asan iş deyil.

## Neymar Braziliyada ada almaq istəyir



**"Əl-Hilal-"ın hücumçusu Neymar İlya-dus-Capao adasını almaq istəyir. Bu barədə Portal Leo Dias məlumat yayıb.**

Ada Rio-de-Janeyro əyalətinin bir hissəsi olan Anqra-dus-Reys bələdiyyəsində yerləşir.

Adanın sahəsi 2,5 hektardır. Oraya yalnız helikopter və ya qayıqla gələ bilərsiniz. Beş yataq otağı və yeddi vanna otağı olan yaşayış sahəsi 10 nəfərə qədər qonaq qəbul edə bilər.

Mülk ilkin olaraq 74 milyon real (təxminən 12,35 milyon avro) dəyərində qiymətləndirilib. Amma sahibi əmlakı satmağa tələsdiyi üçün qiymət aşağı düşüb və bu, tələbatın artmasına səbəb olub.

Digər futbolçular da adanı almaq imkanı ilə maraqlanıblar, lakin indi Neymar müqavilə bağlamağa ən yaxındır. Braziliyalı şeyx Məhəmməd Binhatti ilə birlikdə test sürüşü üçün adanı oktyabrın 9-dan 12-dək icarəyə götürüb.

# Messi Bekhemi qabaqladı...

Argentinalı futbolçu futbol tarixini yazmağa davam edir



**Lionel Messi son uğurundan sonra cərimə zərbəsindən vurduğu qolların sayına görə üçüncü yerə yüksəlib. Onun 66-cı zərbəsi "İnter Mayami"nin MLS-də 3-2 hesablı qələbəsi ilə başa çatan çempion "Kolambus Kryu" üzərində olub.**

İlk yarıya əlavə edilmiş vaxtda qol vuraraq, səkkiz dəfə "Qızıl top"un qalibi argentinalı superulduzla eyni sayda cərimə zərbəsi vuran Ronaldinyo və Viktor Leqrotaleyə çatıb,

Messi əhəmiyyətli bir mərhələyə çatsa da, Juninyo Pernambukano hələ də bu nüfuzlu kateqoriyaya 77 cərimə zərbəsi ilə rəhbərlik edir. Braziliyalı bu mövqelərdən əsl zərbə ustası hesab olunur.

Karyerasının çox hissəsini texniki cəhətdən parlaq bir oyunçu kimi şöhrət qazandığı "Lion"da keçirib, hər hansı bir standart vəziyyəti qol vurma fürsətinə çevirə bilib. Dəqiqliyi və ardıcıllığı misilsiz olub. Bənzərsiz üslubu ilə qapıçılara böyük problemlər gətirib, çünki zərbələrindən sonra top gözlənilməz bir trayektoriya ilə gedib.

Ancaq Juninyonun futbola təsiri yalnız öz uğurları ilə məhdudlaşmır. Kriştiano Ronaldo və Andrea Pirlo da daxil olmaqla bir çox ulduz futbolçu texnikasının elementlərini mənimsəmiş və bacarıqlarından ilham alıb. Sərbəst zərbə vurmaq bacarığını növbəti səviyyəyə qaldırıb və mirası futbol mədəniyyətini formalaşdırmağa davam edir.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Vətəndaşları xaricdə iş düzəltmək adı ilə aldadıb, Kanadaya qaçdı




**Bakı şəhərinin adlarının açıqlanmasını istəməyən bir qrup sakini tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Onlar bildirirlər ki, hazırda Kanada da yaşayan Şükürlü Kənan Azər oğlu onları aldadaraq, pullarını mənimsəyib:**

"Yazaraq, sizdən bu problemi işıqlandırmağınızı xahiş edirik.

Xeyli vaxt idi ki, xaricdə işlərlə maraqlanırdıq. Bir gün tanımadığımız bir nömrədən zəng gələrək, bizə xaricdə iş təklifi olundu. Belə ki, Şükürlü Kənan Azər oğlu digərləri kimi çox məbləğ tələb etməməklə, sadəcə şəxsiyyət vəsiqəsini istəməklə bizi özünə inandırdı. Sən demə, məqsədi pul yığıb qaçmaq imiş.

Hər birimizə bildirdi ki, işiniz alınmasa, pulunuz geri qaytarılacaq. Birimiz 300, birimiz 320, birimiz 350, digərimiz isə 250 manat pul vermişik. Hələ digər adamlar da var ki, onların əlində mesajlar, çeklər var. Sadəcə Kənan həmin adamları bu günə kimidə aldadır ki, sizə xaricdə iş düzəldəcəm.

2 aydan çoxdur ki, bu adam nə işimizi düzəltmir, nə də pulumuzu vermir. Telefonlarını söndürüb, Kanadaya qaçıb.

Sizdən xahiş edirik, bu problemi işıqlandırın, bu adamın sənədini də yayımlayın ki, heç kəs bu adama inanmasın.

Bu haqda polisə də məlumat verəcəyik".

Məsələ ilə bağlı yazıda adı çəkilən Şükürlü Kənan Azər oğlu ilə əlaqə saxladıq. O, aldığı pulları boynuna alaraq, həmin məbləğləri 10 gün içərisində qaytaracağını bildirdi. Redaksiyamıza müraciət edən xanımlardan birinə isə pulunu 30.09.20224-cu il tarixində qaytaracağını bildirmişdir. Lakin bu günə kimi "bu gün, sabah" deyərək hələ də ödəniş etməmişdir.

**Jalə FAMİLQIZI**

# İşə düzəltmək adı ilə "İnstagram"da yüzlərlə insanı aldatdı...




**Bakı şəhər sakinləri - Seyidova Esmira Xanhüseyn qızı, İbrahimova Rəfaqət Fazil qızı, Nağıyeva Nərmin Saleh qızı, Baloğlanzadə Aygün Asəf qızı və adlarının açıqlanmasını istəməyən digər sakinlər tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Dələduzluğa məruz qaldıqlarını deyən şikayətçilər qəzetimiz vasitəsilə səlahiyyətli qurumlara müraciət edirlər:**

"Yazaraq bildiririk ki, təxmini 1-2 ay bundan qabaq "İnstagram" sosial şəbəkəsində "Bal bala" adlı baxça səhvəsində iş elanının olduğunu görmüşük. Müxtəlif vaxtlarda bu səhifəni işlədən dələduzla danışıb, müəyyən qədər ödənişlər etmişik.

Səhifədə ilk əvvəl bizdən CV istənildi. Daha sonra işə başlamazdan əvvəl kurs keçiriləcəyini bildirdilər. Təlim üçün isə ödəniş tələb etdilər. Hər birimiz tələb olunan vəsaiti ödəmişik. Ödəniş məbləği 405, 250 və350 manat olub. Sonra aldadıldığımız məlum oldu. Əlimizdə çekimiz, qarşı tərəfin əlaqə nömrəsi də var.

Mən, Seyidova Esmira Xanhüseyn qızı, aldadıldığımı bilən kimi, həmin səhifənin adını kopyalayıb, qarşısına "dələduzdur" sözünü yazdıb. Bununla səhifədə olan digər izləyicilərin mənim kimi aldanmamalarına səbəb oldum. 20-25 nəfər adam bu addımıma görə mənə öz təşəkkürünü bildirdi. Hər birimiz ödədiyimiz pulların çeklərini saxlamışıq. Hətta kart sahiblərini də araşdırıb tapmışıq. Məlum olub ki, bu kartlar 2 qardaşa aiddir, həm də Dəvəçi sakinləridir.

Pulu bizdən alan, əlimizdə səs yazısı olan xanımdır. Biz onsuz da aldanmışıq. Bu dələduzlar bilirlər ki, 500 manatdan yuxarı məbləğ olanda cinayət işi açılır, bu səbəbdən də rahat işlərini görürlər. Bu, heç də düzgün qərar deyil. Ən pisi də odur ki, həmin səhifə hələ də gün ərzində 5-10 nəfəri aldatmağa davam edir.

Məsələ ilə bağlı Baş Polis İdarəsinə, prokurorluğa və DİN-in 102 xidmətinə müraciət etmişik. Hələ heç bir nəticə yoxdur.

Biz səlahiyyətli qurumlardan kömək istəyirik".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adı çəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# Bakı Şəhər Prokurorluğunda şok saxtakarlıq

## Baş prokurorun birinci müavini Elçin Məmmədovun qərarını kim və necə ləğv edib?



## Bakıda "Dədə Qorqud - 10" kiçik müəssisəsinə məxsus 52 sot torpaq sahəsi qanunsuz yollarla ələ keçirilib...

**Bakı şəhər sakini Cabbarov Teymur Fəxrəddin oğlu tərəfindən "Hürriyyət"ə şikayət daxil olub. Belə ki, redaksiyamıza gələn T.Cabbarov Bakı şəhərində mərhum atasına məxsus olan 52 sot torpaq sahəsinin onun şəriki tərəfindən qanunsuz olaraq satıldığını və pulunun mənimsənildiyini bildirib: "1994-cü ildə Bakı Şəhər İcra Hakimiyyəti başçısının sərəncamı ilə atam Cabbarov Fəxrəddin Ziyadxan oğluna Babək prospekti, 2269-cu məhəllədə müddətsiz olaraq istehsalat təyinatlı 52 sot torpaq sahəsi verilmişdir. Bundan sonra "Dədə Qorqud - 10" kiçik müəssisəsinin ərazisi olan həmin torpaq sahəsindən təyinatı üzrə istifadə olunmuşdur. Atam rəhmətə gedəndən sonra onun şəriki Ələsgərov Xəlil Məhərrəm oğlu və atamın ikinci həyat yoldaşı Məmmədova Kifayət Məmməd qızı əlbir olaraq, müəssisənin torpaqlarını satıb, talan etmişlər".**

T.Cabbarov deyir ki, sonradan həmin ərazidə qanunsuz olaraq evlər tikilmişdir. Bu hadisədən sonra - 2018-ci ildə o, bacıları Cabbarova Aynur Fəxrəddin qızı və Cabbarova Nuranə Fəxrəddin qızı atalarının qanuni varisləri olaraq öz haqlarını hüquq müstəvisində əldə etməyə qərar veriblər. Bu məqsədlə Nizami Rayon Məhkəməsinə müraciət ediblər. Hakim 27 aprel 2008-ci ildə Elnur Nağıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində onların iddiası təmin olunub. Belə ki, məhkəmə Nizami rayonu, Babək prospekti, 2269-cu məhəllədə yerləşən "Dədə Qorqud - 10" kiçik müəssisəsinə məxsus sahədə inşa edilən evlərin sökülməsi, torpaq sahəsinin boşaldılması haqda qərar qəbul edib...

Teymr Cabbarov vurğulayır ki, daha sonra - 2019-cu ildə Nizami Rayon Prokurorluğu məhkəmənin xüsusi qərardadı əsasında Məmmədova Kifayət Məmməd qızı barəsində cinayət işi açıb: "İstintaqda bir epizod üzrə Məmmədova Kifayət Məmməd qızı Cinayət Məcəlləsinin 178.2.4-cü maddəsi ilə ittiham olunub. Lakin cəmi bir gün sonra Bakı Şəhər Prokurorluğu cinayət işini müstəntiqdən alıb. Müəyyən müddət keçdikdən sonra isə həmin cinayət işinə xitam verilib". Şikayətçi bu fikirdədir ki, görünür, Ələsgərov Xəlil Məhərrəm oğlu və Məmmədova Kifayət Məmməd qızı Bakı Şəhər Prokurorluğunda kimlərləsə əlaqə yaradaraq, nəyinsə müqabilində cinayət işini Nizami Rayon Prokurorluğunda xitam etdiriblər.

"Bundan sonra, biz Baş Prokurorluğa müraciət etdik. Nəticədə Baş prokurorun birinci müavini Elçin Məmmədov belə bir qərar verir ki, "Nizami rayon prokuroru Pərviz Ibayevin cinayət işinin icraatına xitam verilməsi haqqında 24 fevral 2020-ci il tarixli qərarı əsassız olduğu üçün ləğv edilsin və icraat təzələnsin". Həmçinin, E.Məmmədovun imzası ilə əlavə istintaqın davam etdirilməsi üçün cinayət işi Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsinə göndərilib. Lakin Bakı Şəhər Prokurorluğu 1 il 4 ay ərzində müstəntiqlərə həmin cinayət işinin araşdırılması üçün imkan verməyib. "Orada Ələsgərov Xəlil Məhərrəm oğlu ilə üzləşmə oldu, 1 gün sonra isə Bakı Şəhər Prokurorluğu yenə həmin cinayət işini gəlib apardı. Daha sonra isə Elçin Məmmədovun qərarı ləğv edildi və cinayət işini yenidən Nizami Rayon Prokurorluğuna göndərildi", - deyən Teymur Cabbarov əlavə edir ki, atasının qurubyaratdığı "Dədə Qorqud - 10" kiçik müəssisəsinə məxsus 52 sot torpaq sahəsi qanunsuz olaraq, yəni heç bir rəsmi sənəd imzalanmadan satılıb. Halbuki, məhkəmə həmin torpaq sahəsini qanuni yollarla 6 nəfər vərəsə arasında bölüb. Buna baxmayaraq, Məmmədova Kifayət Məmməd qızı istisna olmaqla, qalan 5 vərəsəyə pay düşməyib.

Şikayətçi deyir ki, bütün bunlardan sonra Nizami Rayon Prokurorluğunu məhkəməyə veriblər: "Məhkəmə xitam qərarının qanunsuz olduğu haqda qərar çıxarıb. Bu dəfə də cinayət işi uzun müddət gizlədildi və daha sonra yenidən Nizami Rayon Prokurorluğunun istintaq şöbəsinə göndərildi. 2021-ci ildən iş orda olsa da, yuxarıdan verilən göstəriş əsasında Nizami Rayon Prokurorluğu heç nə edə bilmir".

Teymur Cabbarov deyir ki, sözügedən torpaq sahəsinin satışı zamanı ümumilikdə 1 milyon manatdan dan artıq mənimsəmə həyata keçirilib. O deyir ki, ərazi qanunsuz olaraq satıldığından, hazırda həmin torpaq sahəsində tikilən evlərin heç birinin sənədi yoxdur.

"İndi müstəntiqə sual verirəm ki, məhkəmə qərarlarını niyə icra etmirsən? Deyir ki, prokuror bu qərarı icra edəcəyim halda, məndən təqdimat yazacağını bildirib. Bir sözlə, prokurorluq məsuliyyəti müstəntiqin, müstəntiq də prokurorluğun üzərinə atır. Çox maraqlıdır ki, illərdir, prokurorluq Ələsgərov Xəlil Məhərrəm oğlu və Məmmədova Kifayət Məmməd qızını rəsmi qaydada qoruyur, az qala aparıb evlərində gizlədəcəklər".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# 7 il ərzində dövlətdən 27 milyard oğurladılar

"Hürriyyət" qəzetində "Alatava-2 Avtonəqliyyat" Səhmdar Cəmiyyətinin qeyri-rəsmi sahibləri - Fərəməz Məmmədov və Qalib Məmmədov qardaşlarının dövlətin külli miqdarda vəsaitini talan etməsi haqda yazmışdıq. Qeyd etmişdik ki, bütün bunlara rəğmən, onları himayə edən məmurların hesabına qardaşlar hələ də "toxunulmaz" qalıblar.



## Dövlət büdcəsini talan edən Fərəməz və Qalib Məmmədov qardaşları haqda cinayət işi 20 ildən çoxdur açıq saxlanılır...

Məlumat üçün bildirək ki, sözügedən daş bazarına rəsmi olaraq Afaq Yavər qızı Məmmədova rəhbərlik edir. Bazar "Alatava-2 Avtonəqliyyat" Səhmdar Cəmiyyətinin mülkiyyətindədir. SC-nin əsas səhmləri də Afaq Məmmədovanın adına rəsmiləşdirilib. "Əslində isə bazara və təbii ki, hər ay qazanılan on minlərlə manat çirkli pullara A.Məmmədova deyil, onun kölgəsində gizlənən həyat yoldaşı, iş adamı Fərəməz Məmmədov nəzarət edir", - deyə mətbuat yazırdı.

Xatırladaq ki, Fərəməz Məmmədovun ismi vaxtilə siyasi dairələrdə də tez-tez çəkilirdi. Hansı ki, bu şəxsin sabiq spiker Rəsul Quliyevlə keçmiş baş prokuror Eldar Həsənov arasında uzun müddət vasitəçi olduğu, hətta R.Quliyevin Açı Cəmiyyət Partiyasını maliyyələşdirdiyi də iddia olunurdu.

Onu tanəyanlar deyir ki, Masallı rayonunun Ərkivan kəndində anadan olan Fərəməz Məmmədov qabaqlar kasıb yaşayıb. Sonradan isə Kənd Təsərrüfatı Nazirliyinin elektromexanizasiya trestinin 4 nömrəli avtonəqliyyat qarajında çalışıb. Fərəməz Məmmədovun qardaşı Qalib Məmmədov isə Avtonəqliyyat İdarəsində rəis işləyib. İki qardaş əl-ələ verərək, dövlət əmlakını mənimsəyiblər. Sonradan Qalib Məmmədov Rəsul Quliyevin qardaşının köməyi ilə "Azəravtoyol" Departamentində yol fonduna rəis müavini təyin edilib. Eldar Həsənovun qardaşı Şahin Həsənov isə həmin vaxt sədr müavini olub. Qalib Məmmədov əvvəlki işinə isə yaxın adamı Gülağa Məmmədovu yerləşdirib.

Mənbə deyir ki, F.Məmmədov külli miqdarda mənimsəməyə yol verdiyi üçün ona cinayət işi qaldırılıb. Fərəməz Məmmədovun qara mühasibat üçotunu Gülağa Məmmədov aparıb. Məhz buna görə də qardaşların planına əsasən Gülağa Məmmədov gizlənib.

Lakin sabiq Baş prokuror Eldar Həsənov Fərəməz Məmmədovun dar günündə köməyinə çatıb. O, qardaşı Şahin Həsənov vasitəsilə işə qarışıb və cinayət işinə xitam verilməsinə nail olub.

Ümumiyyətlə, Fərəməz Məmmədov bir çox iqtisadi cinayətlərdə ittiham olunub. Hətta belə iddialar var ki, ona qarşı açılan cinayət işinin bəziləri hələ də açıq qalır. F.Məmmədov bunu bildiyi üçün həyat yoldaşından qəsdən boşanıb və bazarı xanımının adına sənədləşdirib ki, cinayət işi yenilənsə, əmlakı müsadirə olunaraq əlindən çıxmasın...

İddia olunur ki, F.Məmmədov dövlətin külli miqdarda vəsaitini talan etməklə qazandığı pullar hesabına özünə "Yüksəl-inşaat" MTK adlı tikinti şirkəti qurub və təkcə ölkəmizdə deyil, xarici dövlətlərdə də böyük komplekslər tikməkdədir.

Əlbəttə, Fərəməz Məmmədov Eldar Həsənovdan sonra da himayəsiz qalmayıb. Əksinə, indi onun daha nüfuzlu məmur tərəfindən himayə olunduğu haqda informasiyalar var. Təbii ki, bütün bunlar heç də səbəbsiz deyil. Çünki hüquq-mühafizə orqanları bir şəxs barəndə cinayət işi açırsa, onu beynəlxalq axtarışa verirsə, o isə heç nəyə məhəl qoymadan öz biznesini uğurla genişləndirirsə, deməli, arxasında böyük rütbəli məmurların durduğu şübhəsizdir.

Onu da qeyd edək ki, Fərəməz Məmmədov öz biznesinin 90-cı illərin ortalarında o zaman yüksək dövlət vəzifəsi tutan kiçik qardaşı Qalib Məmmədovun sayəsində qurub. Qalib Məmmədov isə Avtomobil Nəqliyyatı Nazirliyinin Yol Fondunun sədri vəzifəsinə sabiq spiker Rəsul Quliyevin qardaşı Telman Quliyevin xeyir-duası ilə təyin olunub (Avtomobil Nəqliyyatı Nazirliyi sonradan "Azəravtoyol" Dövlət Şirkətinə çevrildi, Yusif Novruzov da onun rəhbəri oldu. 1998-ci ildə Nəqliyyat Nazirliyi yaradılandan sonra bu Dövlət Şirkətinin statusu dəyişdi və o, 2003-cü ildə Nəqliyyat Nazirliyi nəzdində departamentə çevrildi - müəl.).

Mətbuat yazır ki, DİN-in Baş İstintaq İdarəsi Məmmədov qardaşlarının cinayətlərinin izinə düşəndən sonra Fərəməz Məmmədov istintaqdan qaçıb Türkiyədə gizlənməyə məcbur olub. Onun qardaşı Qalib Məmmədov isə Bakıdakı biznesini davam etdirməyə başlayıb.

Qeyd etdiyimiz kimi, Fərəməz Məmmədov vaxtilə Kənd Təsərrüfatı Nazirliyinin 4 saylı Elektromexanizasiya Trestinin qarajında işləyib. Həmin vaxt qardaşı Qalib Məmmədov artıq nəqliyyat sektorunda çalışırdı, Avtonəqliyyat İdarəsinin rəisi idi. Q.Məmmədov bundan sonra Nəqliyyat Nazirliyi Yol Fondunun sədri təyin olunub.

Q.Məmmədov Yol Fondunun sədri olandan sonra əvvəlki iş yerində rəhbər kimi öz adamı Gülağa Məmmədovu saxladı. Çünki gələcək "pulyuma mexanizmi"ni işlətmək üçün bu, ona çox lazım idi. Heç də təsadüfi deyil ki, onların hər yerdə adamı, lazımi postlara yerləşdirilmiş qohumları olub. Yaxınlarının, qohumlarının olmadığı yerlərdə isə hamını susduracaq qədər böyük pulları olub.

Yol Fondu həmin dövrdə "vergi idarəsi" kimi çalışıb, Nəqliyyat Nazirliyinin tabeçiliyindəki müxtəlif dövlət idarələrindən (o cümlədən neft bazalarından) faiz alıb. Həmin dönəmdə qardaşların külli miqdarda maliyyə yeyintisi aşkara çıxdıqdan sonra Nəqliyyat Nazirliyi gözdən pərdə asmaq üçün formal cinayət işi açmaq qərarına gəlib. Üstəlik, Yol Fondu ləğv edilib, onun səlahiyyətləri digər qurumlara verilib. Nəticədə 1 və 3 saylı neft bazalarının müdirləri zərbə altında qalıb. 1 saylı bazanın müdiri elə indiki daş bazarının sahibi Fərəməz Məmmədov idi. Ona da, 3 saylı bazanın müdiri Əhəddin Əliyevə də cinayət işi açılıb. O vaxt Ə.Əliyev xaricə qaçıb. Təbii ki, bir sıra mühüm sənədlərə imza atan Gülağa Məmmədovu da gizlədə bildilər. Fərəməz Məmmədov isə yalnız qardaşının himayədarlığı və yuxarılardakı yaxşı əlaqələri sayəsində cəzadan qurtulub. Lakin, qeyd etdiyimiz kimi, cinayət işi hələ də açıq qalır. Çünki oğurluğun və büdcə pullarının yuyulmasının miqyası həddən artıq böyükdürg

Fərəməz Məmmədov və Qalib Məmmədov qardaşları təkcə dövlətin külli miqdarda sərvətini mənimsəməklə kifayətlənməyiblər. Belə ki, onlar vaxtilə şərik olduqları, bərabər çalışdıqları şəxslərin də etibarından sui-istifadə edərək, böyük həcmdə pullarını ələ keçiriblər. Həmin şəxslərdən biri də Masallı rayon sakini Mirzəyev Xosrov Mirzəcan oğludur. "Hürriyyət"ə açıqlama verən X.Mirzəyev deyir ki, 1991-ci ildən "Azəravtoyol"da çalışıb. 1993-cü ildən 2001-ci ilə qədər 3 nömrəli Material Texniki Təchizat Bazasının müdiri işləyib. Onun sözlərinə görə, həmin vaxt Fərəməz Məmmədov da 1 nömrəli Material Texniki Təchizat Bazasının müdiri olub. "Biz əlaqəli iş görürdük. Bizim vəzifəmiz yol idarələrini mal-materialla təmin etmək idi. Bizə nə sifariş olunurdu, həmin malları tapıb gətirirdik", -deyən Xosrov Mirzəyev bildirir ki, günlərin birində F.Məmmədov ona ortaq biznes qurmağı təklif edib: "O dedi ki, Rusiyadan mal gətirib, yaxşı gəlir əldə edə bilərik. Mənim də bu işə şərik olmamı, pul yatırmamı istədi. Mən də əlimdə və ailəmdə olan pulları toplayıb, ona 60 min dollar verdim. Pulu verəndə Qalib və Fərəməz bir yerdə idilər. Dedilər ki, nə qazansaq 3 yerə böləcəyik. Doğrudur, həmin vaxt mənə Rusiyadan hansı malı gətirəcəklərini demədilər. Amma sonradan Ukraynadan təmir borular gətirib, Ceyranbatandakı anbarlarına yığırdılar".

Xosrov Mirzəyevun sözlərinə görə, həmin vaxt F.Məmmədov 1 nömrəli Material Texniki Təchizat Bazasının müdiri olsa da, bütün alqı-satqı işləri onun möhürü ilə həyata keçirilib: "Onun idarəsi işləmirdi, mənim möhürümlə iş görürdülər". O deyir ki, Qalib Məmmədov Yol Fondunun müdiri olduqdan sonra, ona qanunsuz yollarla böyük həcmdə pul qazanmağı təklif ediblər. O isə qardaşların onun möhürü ilə dövlət əmlakını talan etməsi təklifi ilə razılaşmayıb. Bundan sonra aralarında problem yaranıb: "Materialları dəyərindən dəfələrlə baha qiymətə sənədləşdirirdilər. Dedim ki, mən belə şeydən qorxuram, buna razı ola bilmərəm. Əlavə etdim ki, mən sizə 60 min vermişəm, ondan nə qədər qazancım olacaqsa, yalnız onu istəyirəm. Nəticədə, onların mənimlə mübahisəsi düşüdü. Sonra nazir müavini Şahin Həsənovla danışdılar, həmin vaxt nazir Yusif Novruzov idi. Mənim idarəmi 8 dəfə yoxladılar, heç bir qanunsuzluq tapa bilmədilər. Buna baxmayaraq, möhürü əlimdən alıb, iş fəaliyyətimi dayandırdılar. Səbəb kmimi isə onu göstərdilər ki, sən Bakıda deyil, Masallıda fəaliyyət göstərməlisən".

Xosrov Mirzəyev bildirir ki, Şahin Həsənov ondan möhürü aldıqdan sonra Masallıya getməyi təklif edib: "Məndən möhürü alıb, Əliyev Ağaddin Xaliq oğluna verdilər. Sonra mənim yerimə onu müdir təyin etdilər. Mənə də dedilər ki, get Masallıya, aybay maaşını alacaqsan. Daha sonra onlar Ağaddinlə maliyyə maxinasiyaları etməyə başladılar. Bir müddət sonra, yoxlama zamanı 27 milyard manatlıq yeyintilə ri ortaya çıxdı. Məsələn, 2001-ci ilə qədər neftbazanın benzinin satıb, pulunu talan etmişdilər".

X.Mirzəyev deyir ki, üstündən 20 il keçsə də, ortaq biznes qurmaq məqsədilə Fərəməz Məmmədov və Qalib Məmmədova verdiyi 60 min dolları geri ala bilmir. "20 il ərzində onlara verdiyim 60 min dollardan 1 manat da ala bilmədim. Şikayət də edə bilmədim, çünki həmin pulu onlara verdiyim haqda heç bir sənədə imza atdırmamışdım, şahidim də yox idi. Eyni zamanda, Qalib mənə deyirdi ki, biz səndən pul almamışıq, hara istəyirsən get şikayət elə. Sonralar isə heç məni yaxın da qoymurdular ki, pulumu istəyim".

**"Hürriyyət"**

**Redaksiyadan: Mövzunu davam etdirəcəyik. Qarşı tərəfin mövqeyini də dərc etməyə hazırıq.**

# "Həyat uzaqdan baxanda komediya, yaxından baxanda isə faciədir..."



# Ay gidi dünya

## ...salıb bir manatını itirir, "hayıf o bir manatdan..." deyib, az qala bir gün vaysınır, amma göz önündəcə adamlığını itirir, heç vecinə də almır



Eldəniz QULİYEV

Yəqin ki, çoxlarının yadındadı... Əvvəllər "sürü" deyəndə, bunu qoyun, ya da iribuynuzlu heyvan sürüsü kimi başa düşürdük. Lakin son zamanlar nə oldusa, nələr baş verdisə, sürünün həm çeşidləri artdı, həm də fonetik transkripsiyası dəyişildi.

Misal üçün, - yaltaq sürüsü, troll sürüsü, məmur sürüsü. Yaxud qorxaqlar, yalançılar, riyakarlar, korrupsionerlər, rüşvətxorlar, işverənlər, qulbeçələr, dələduzlar və sairələr sürüsü...

Və bütün bu sürülərin oxşar xarakterik xüsusiyyəti də var: o da insanın insaniyyətliyini, adamın adamlığını salıb itirməsidir...

Əslində, bu, mat qalmalı, əcaib-qəraib bir işdi. Yəni adam təsadüfən salıb bir manatını itirir və "hayıf o bir manatdan..." deyibən, az qala bir gün vaysınır. Amma göz önündəcə, hətta bəzən bilə-bilə, yəni qəsdən, öz xoşuyla salıb adamlığını itirir...və heç vecinə də almır, - sanki elə belə də olmalıymış...

Sözümün canı var... Deyirəm, həqiqətən bu dünyanın at keçməz iştəkləri varmış...

Dünən 28 May metrosunun yanında qeyri-adi bir hadisənin şahidi oldum. Diqqətimi maraqlı, hətta deyərdim ki, çox qəribə bir "personaj" cəlb elədi...

Günortaydı. Havanın istisi nəfəs kəsirdi. Metronun çıxışında geyimindən daha çox "bomj"-a oxşayan balaca boylu, saqqalı bir kişi dayanmışdı. Bir suyu Caplinin "Avara"-sına oxşayırdı. Qəribəsi isə, onun heykəl kimi donub qalması və əlində neft lampası saxlamasıydı... Hərəkətsiz dayanmış "Caplin", deyəsən digərlərinin də marağına səbəb olmuşdu...

Əlbəttə, günün günorta çağı, şəhərin mərkəzində, qələbəlik yerdə, əlində yanan lampa gəzdirən adam görmək, sıradan bir mənzərə deyildi...

Sonradan baş verənlər pantomima teatrının tamaşasını xatırlatdı...

..."Heykəl" qəflətən diksinib canlandı...və cəld bir hərəkətlə metrodan çıxan sərnişinlərdən birinin qarşısına atıldı. Bayaqdan əlində məşəl kimi saxladığı çırağı, gözlənilməz həmlədən çaşıb qalmış adamın üzünə yaxınlaşdırdı. Nüfuzedici nəzərlərini öz "ovunun" üzünə dikdi; elə bil, adamın üzündə, ya gözlərində nəsə çox vacib bir əlamət, ya nişanə axtarırdı...

Görünür, cəhdi boşa çıxmışdı - axtardığı "nə isə" tapılmamışdı...

Əlilampalı peşman halda köks ötürdü, sonra dabanı üstə fırlanıb sakitcə kənara çəkildi... Bir neçə dəqiqə keçməmiş, eyni hərəkət yenidən təkrarlandı. Sonra yenə də...

Bu qəribə olaya marıtdayıb baxanlardan kimsə istehzayla güldü, kimsə hirsli-hirsli başını buladı, hətta ağzını büzüb xorultunu xatırladan nərilti səsi çıxarmağa üstünlük verən də oldu...

Daha sonra vaqe olanlar, eynən ləng şəkilmiş kino kadrlarına bənzədi...

...Əli dəyənəkli asayiş keşikçiləri, həmişə olduğu kimi, haradansa (bəlkə də, birbaş qeybdən) peyda oldular. Əvvəl onlar da bu hadisəni təəccüb və heyrətlə, az sonra isə, aşkar təşvişlə izlədilər.

Təbii ki, şanlı polislərimiz, nümunəvi qayda-qanun keşikçilərinə xas olan ədəb-ərkanla, ictimai asayişi pozan bədbəxt subyektin qollarını qatlayıb burmaqdan savayı özgə əlac tapmadılar. Başqa neynəməliydilər ki?..

Təəssüf ki, bu zaman lampanın hisli şüşşəsi yerə düşüb çilikləndi...

Əlidəyənəklilər zəruri "qolburma" prosedurundan sonra, əlilampalını (artıq, əlilampasızı) yaxınlıqdakı maşınlarına tərəf sürü...aparmaq əməliyyatına start verdilər...

Bu zaman (bunu şəxsən özüm eşitdim), asayiş keşikçiləri arasından ağıllı (hətta ola bilsin ki, müdrik) birisi, çox nazik və çox da həlim bir səslə:

- Güman ki, bu, müxalifətçidi, özü də lap radikalınnan, - dedi.- Toçnı hökümətə qarşı təbliğat aparır! Erməni dəyirmanına su tökənin buynuzu olmur ki!..

Daşdan səs çıxdı, marıtdayıb baxan seyrçilərdən səs çıxmadı...

Nəhayət polislərdən biri irəli keçib əlilampalıya yaxınlaşdı və nə üçünsə amiranə tərzdə:

-Vətəndaş, noolub, nə xəbərdi? - deyə soruşdu.- Nə itirmisən?.. Əlindəki bu çırağ-mırağ nədi?.. Nə axtarırsan burda?!

Əlilampalı qəddini dikəldib, kədərli-kədərli:

- ADAM AXTARIRAM, ADAM! İNSAN AXTARIRAM, İNSAN! - deyə, cavab verdi.

- Nəə?..- deyəsən polis əməkdaşı qulaqlarına inanmadı.

- Adam! A-dam! İn-san!!!

> Təbii ki, şanlı polislərimiz, nümunəvi qayda-qanun keşikçilərinə xas olan ədəb-ərkanla, ictimai asayişi pozan bədbəxt subyektin qollarını qatlayıb burmaqdan savayı özgə əlac tapmadılar. Başqa neynəməliydilər ki?..

Həlim səsli, ağıllı-müdrik asayiş keşikçisi sağ gözünü qıyıb, sol qaşını qaldırdı və leksikonuna qeyri-normativ "notlar" əlavə edərək:

- Diogen oğlu, diogen!" - dedi. Dedi və bu zaman həzin bir ciyiltiylə qışqırmağı da vacib saydı; nəticədə, (güman ki, öz səsindən ruhlanaraq), biçarə lampalının (yəni,- lampasızın) yumşaq yerinə qəşəng, ancaq, təbii ki, qeyri-estetik bir təpikcik də vurmağa səy göstərdi. Şübhəsiz ki, o, vəzifə səlahiyyətinə daxil olan bu hərəkətləri etik davranış qaydaları çərçivəsində və əsil asayiş keşikçisinə yaraşan bir tərzdə həyata keçirdi...

Bəlkə də bu hadisə elə buradaca tamamə yetəcəkdi, əgər...

...əgər ADAM axtaran kişinin, hamıya və heç kəsə, dediyi bu kəlmələr olmasaydı:

-Həyat uzaqdan baxanda komediya, yaxından baxanda isə faciədir...

Bu məqamda "stop kadr", yaxud "zamri" oldu; yəni əlidəyənəkli asayiş keşikçiləri lappadan donub qaldılar. Ağıllı-müdrik qardaşımızın sir-sifətində isə... məcburən qurtum-qurtum limon suyu içən əzablı qrimas yarandı:

-Nəə, nə dedin?.. Faciə nədi, adə?! Deyəsən sən başdan xosunbaysan ha!..

Eks-əlilampalı pırpız saqqalına sığal çəkib, əvvəl əlidəyənəklilərə, sonra ətrafda toplaşan marıtdıyanlara baxdı. Daha sonra başını qaldırıb bulanlıq, ancaq məğrur və işıqlı nəzərlərini göy üzünə zillədi. Bu dəm araya elə bil qatı bir sükut səpdilər...

Qəhrəmanımız, yəni bizim Çaplinimiz aramla, təmkinlə pıçıldadı:

- Bədbəxtlər... Bu dünya Süleymana da qalmadı axı...Kimsə zənn eləməsin ki, əllərini qaldırıb günəşin qarşısına tutmaqla... dünyanı zülmətə qərq eləmək olar... Yox! Bu mümkün olan iş deyil. Bunu heç Makedoniyalı İsgəndər də bacarmadı. Teymurləng də, Hitler də, hətta Bağdaddakı kor xəlifə də, heç kor şeytanın özü də bacarmadı... Bacarmayacaqlar da! Qəflət yuxusundan oyanın! Sadəcə, ADAM olmağa, İNSAN olmağa çalışın, vəssəlam, - bu kifayətdi elə!

Bircə bunu deyə bilərəm ki, (lazım gəlsə, hətta lap and da içərəm) bu qəribə adamın pıçıltıyla dediyi son kəlmələr, az qala şimşək təki çaxıb dörd bir tərəfdə əks-səda yaratdı...

Ya bəlkə... mənə belə gəldi,- bilmirəm!..

# "Dövlət özəl reabilitasiya mərkəzlərini bağlamaqdansa, onlara dəstək verməlidir"

## İlqar Ağayev: "Ən pis fəaliyyət göstərən reabilitasiya mərkəzini belə, bağlamaq olmaz"

**Azərbaycanda narkomaniyanın azaldılmasında özəl reabilitasiya mərkəzlərinin böyük rolu var. Bu mərkəzlərin işi sayəsində xeyli asılı şəxs narkotik və digər zərərli vərdişlərlə yolunu ayıraraq, sağlam həyata və cəmiyyətə qayıdış yolunu tutur. Doğrudur, bu mərkəzlərin hamısı peşəkarlığın ən yüksək həddində deyil, amma işində ciddi nailiyyətlər əldə edənlər də az deyil.**

**Lakin nədənsə özəl reabilitasiya mərkəzlərinin fəaliyyəti ölkəmizdə kimlərisə qane etmir. Hətta bəzi qurumların hökumətə bu mərkəzlərin bağlanılması haqda təkliflər irəli sürdüyü də bildirilir. Bəs özəl reabilitasiya mərkəzlərinin bağlanması cəmiyyətimizə nə verə bilər? Onların fəaliyyətinin qapadılması onsuz da ölkəmizdə tüğyan edən narkomaniya bəlasının daha çox yayılmasına səbəb olmayacaqmı? Bu barədə "Güvən" Reabilitasiya Mərkəzinin rəhbəri İlqar Ağayevin fikrini öyrəndik.**



### "Özəl reabilitasiya mərkəzlərinin fəaliyyəti göz ardına vurula bilməz"

***- İlqar bəy, Azərbaycanda özəl reabilitasiya mərkəzlərinin bağlanması təklif olunur. Bu mərkəzlərin rəhbərlərindən biri kimi bu barədə nə deyə bilərsiniz?***

- Yəqin ki, bu işin içində olmayan insanlar kənarda eşitdiyi hansısa fikirlərə əsasən bu qənaətə gəlib çıxıblar. Mən belə düşünürəm. Hesab etmirəm ki, hansısa dövlət xidmətçisi boş yerə cəmiyyətə ciddi şəkildə fayda verən hansısa reabilitasiya mərkəzinin bağlanmasını istəsin. Görünür, bu adamlarda reabilitasiyalar haqda mənfi fikir həddən artıq çoxdur. Mən bu fikirlərlə qismən razılaşıram. Bilirsiniz ki, Azərbaycanda 150-dən çox reabilitasiya mərkəzi var. Bəzi mərkəzlər var ki, onların barəsində mənfi fikirləri biz də eşidirik. Amma bu, o demək deyil ki, kimlərinsə yanlış fəaliyyətinə görə bütün mərkəzləri bağlamaq lazımdır. Dövlət qurumları bu məsələyə nəzarət edə bilər. Dövlət nəzarət edə bilmir, yaxud etmək istəmirsə, mən bunu aidiyyəti qurumların, məmurların məsuliyyəti öz üzərlərindən atmaq istəməsi kimi qiymətləndirirəm.

Əksinə, çox gözəl olardı ki, dövlət tərəfindən reabilitasiya mərkəzlərinə lisenziya verilsin, onlara maddi yardım olunsun, narkoloq mütəxəssislərlə təmin edilsin və s. Daha böyük nəticə üçün dövlətin dəstəyi birmənalı şəkildə lazımdır. Düzdür, elə mərkəzlər var ki, dünən reabilitasiyanı bitirən hansısa şəxs kirayəyə villa götürür, reabilitaisya mərkəzi açıb-işlədirlər, hansısa gözüyaşlı ananın ümidlərini gətirib orada puç edirlər. Belə deyim, reabiitasiya mərkəzləri bir təməldir, ikinci prosesdir. Birinci proses detoksikasiyadır. Bunun üçün də dövlət müəssisələri var, asılı insan gedib orada qanını yuyuzdurur, ikinci mərhələ reabilitasiya, üçüncüsü isə sosial mərhələdir. Yəni reabilitasiya ilə iş bitmir. Bu gün "anonim narkomanlar" deyilən bir yer var ki, şükürlər olsun, ora da inkişafdadır. 2020-ci ildən bu yana kimi nə qədər alkoqolik, nə qədər narkoman, nə qədər iqroman olub ki, onların arasında cəmiyyətə yenidən qayıdan insanları görə bilərik. Mən minlərlə belə insan görmüşəm.

Dövlətimiz hələ gənc yaşdadır, 1991-ci ildə müstəqilliyini bərpa edib. 1991-ci ildən 2020-ci ilə kimi dövlət müəssisələri cəmiyyətimizə nə qədər faydalı insan qazandırıb? Çox az. Həddən çox az. Ona görə də mənim şəxsi fikrimdir, başda dövlətin maddi və mənəvi dəstəyindən tutmuş, ixtisaslaşmış peşəkar narkoloqlarla dəstəyinə ehtiyac var. Reabilitasiyaların hamısını bir-birinə qataq, bağlayaq, bu absurd düşüncədir. Bu nə dövlətin, nə millətin, nə cəmiyyətin, nə bu məsələlərdən əziyyət çəkən valideynlərin, şəxslərin xeyrinədir. Reabilitasiya mərkəzlərini bağlamaq dövlət nümayəndələrinin məsuliyyətdən qaçmalarıdır. Bu, qətiyyən olmaz. Sizin bir məsuliyyətiniz varsa, bunu yerinə yetirin.

***- Qeyd etdiniz ki, reabilitasiya mərkəzlərinin içində normal fəaliyyət göstərməyənlər var. Hər bir halda bu, onların bağlanmasına rəvac vermir...***

- Siz də bilirsiniz ki, reabilitasiya mərkəzlərində ölüm hadisəsi olub. Bu danılmaz faktdır ki, məlum cinayətə görə rəhbər şəxslər məsuliyyətə cəlb olunub, həbsxanada cəza çəkirlər. Yaxşı, gəlin aydınlaşdıraq ki, dövlət müəssisələrində bu qəbildən ölüm hadisəsi olub, ya yox? Dəqiq bilmirəm, amma mənim də eşitdiklərim var... Amma normal fəaliyyət göstərən 10-15 reabilitasiya mərkəzinin rəhbərini şəxsən tanıyıram, onların mərkəzlərində olmuşam, özlərinin insani keyfiyyətlərinə bələdəm. Onlar sağlam addım atırlar. Amma yenə deyirəm, dövlət bu kimi mərkəzlərə həm dəstək verməli, həm də nəzarət etməlidir. Yəni dövlət onları bağlamaqdansa, dəstək olmalıdır. Yenə də deyim ki, 1991-ci ildən bura 30 ilə yaxın vaxt keçib. Dövlət reabilitasiya mərkəzləri nə edə biliblər ki? Amma bu bir neçə ildə özəl reabilitasiya mərkəzləri dövlətə, millətə, cəmiyyətə çox sayda faydalı insan qazandırıb. Özəl reabilitasiya mərkəzlərinin fəaliyyəti göz ardına vurula bilməz.

***- Sizcə, özəl reabilitasiya mərkəzləri bağlansaydı, bu, ölkədəki kriminogen vəziyyət də daxil olmaqla, narkomaniyanın tüğyan etməsi sahəsində hansı mənzərəni formalaşdırardı?***

- Ümumiyyətlə, bu məsələyə təkcə narkomaniya gözü ilə baxmaq lazım deyil. Bu gün reabilitasiya mərkəzlərində narkomaniyanı da keçən bir problem var - iqromaniya. Bütün insanların əlində smartfon telefon var. O telefonlar vasitəsilə hansısa internet saytlarına daxil oluruq, görürük ki, burada qumar oyunları çox möhkəm şəkildə reklam olunur. Və həmin qumar oyunları da insanda sürətli asılılıq yaradır. Eynilə, narkotik qəbul edən insan öncə ailəsinə, ətrafına, cəmiyyətə, dövlətə - hamıya ziyan vurduğu kimi, iqromanlar da həmin şeyi edir ki, reabilitasiyalar həmin insanı da düşünür. Yəni bu məsələni təkcə narkomaniyaya bağlamaq lazım deyil. Belə deyim, Amerikada 25 mindən çox reabilitasiya mərkəzi var... Düzdür, Amerikanın 350 milyondan çox əhalisi var, orada 25 mindən çox reabilitasiya mərkəzinin olması normaldır. Bizim dövlət bu məsələlərin qabağını alır, amma o ölkədə həm narkotik, həm qumar, oyunlar, həm də asılı insan çoxdur. Yəni ABŞ-da 25 min reabilitasiya mərkəzi varsa, bizdə heç olmasa dövlət kimyəvi asılılıqdan başı çıxan, cəmiyyətin içindəki dürüst insanları işlə təmin etməli, hansı reabilitasiya mərkəzlərində düzgün müalicə prosesinin getməsinə nəzarəti ona həvalə etməlidir. Bəli, hazırda dövlət buna tam nəzarət edə bilmir. Amma biz bu işin içindəyik, elə adamlar var ki, reabilitasiya mərkəzi açıb, özü asılıdır, heç öz sağalmağı ilə məşğul olmur. O, sabah hansı insana töhfə verə biləcək?!..

***- Belə başa düşürük ki, siz birmənalı şəkildə reabilitasiya mərkəzlərinin bağlanılmasına qarşısınız...***

- Ümumiyyətlə, bağlamaq olmaz. Heç 150 reabilitasiya mərkəzinin içindəki qeyri-peşəkar işləyənləri də bağlamağa ehtiyac yoxdur. Onlara kömək etmək, ümumi prosesə töhfə vermək lazımdır. Ən pis fəaliyyət göstərən reabilitasiya mərkəzini belə, bağlamaq olmaz. Ən pis reabilitasiya mərkəzinin belə hardasa müsbət nəticəsi var. Yenə də deyirəm, dövlət müəssisələri 30 il ərzində heç bunu edə bilməyib. Odur ki, heç bir reabilitasiya mərkəzi bağlanılmamalıdır. Əksinə, bütün reabilitasiya mərkəzlərinə dəstək verilməli, paralel olaraq fəaliyyətlərinə nəzarət olmalıdır. Bir də dövlət onlara qarşı öz tələblərini irəli sürməlidir, onların başında isə sağalmış asılı insan olmalıdır.

**Hazırladı: İ.SABİRQIZI**

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) adı ölkə mətbuatından dəfələrlə şübhəli tender qalmaqallarında hallanıb. Təkcə son bir neçə ay ərzində bu agentliyin on milyonlarla manatlıq bir neçə layihəsi istər mətbuatda, istər də sosial şəbəkələrdə ciddi müzakirə mövzusuna çevrilib. Hətta bəzi hallarda tender elan olunmadan agentlik tərəfindən formal olaraq “qalib şirkətin” adı da elan olunub ki, bu da növbəti saxtakarlıq və maliyyə maxinasiyası kimi qəbul olunub.**




# ANAMA-nın şübhəli tenderləri, milyonluq maxinasiyaları

## Və yaxud agentlik elan etdiyi tenderin qalibi olan şirkətlərin pulunu niyə vermir?




O da maraqlıdır ki, ANAMA-nın tenderlərinin qalibləri əsasən hansısa məmurlara, bəzi hallarda isə sabiq məmurlara məxsus şirkətlərdən ibarətdir. Məsələn, cari ilin aprel ayında agentlik “İmprotex İndustries” MMC (VÖEN - 1401813511) ilə satınalma müqaviləsi imzaladı. Həmin vaxt bildirildi ki, sözügedən müqaviləyə görə ANAMA minatəmizləmə texnikaları, ehtiyat hissələri və təlim xidmətlərinin satın alınması üçün “İmprotex İndustries” MMC-yə 19 milyon 629 min 520 manat ödəyəcək. Bəs, bu “İmprotex İndustries” MMC kimə məxsusdur?

Mətbuatın apardığı araşdırma nəticəsində aydın oldu ki, “İmprotex İndustries” MMC 1 iyul 2010-cu ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 100 manat olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Nəsimi rayonu, Həzi Aslanov, ev 115, m. 21-də yerləşir. MMC-nin qanuni təmsilçisi Abdullayev Mühəmməd Fərid Azər oğludur. Əslində isə, agentlikdən təxminən 20 milyon manatlıq sifariş alan şirkət Azərbaycanın keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərova məxsusdur.

Sabiq nazir işğaldan azad olunan ərazilərdə yaradılan “Araz Vadisi İqtisadi Zonası”nda xüsusi təyinatlı texnika və metal məmulatları istehsal edən müəssisə açıb. Həmin müəsssisədə mexaniki minatəmizləyənlərin də hazırlandığı bildirilib.

Ən təəccüblüsü isə o idi ki, bu müqavilə üzrə satınalma proseduru dövlət satınalmalarının vahid internet portalında keçirilməyib. Halbuki, “Dövlət satınalmaları haqqında” Qanunun 15.1 maddəsində göstərilir ki, məxfi məlumatlar istisna olmaqla bütün dövlət satınalmaları yalnız portal vasitəsilə həyata keçirilir. Nəzərə alaq ki, minatəmizləmə texnikasının satın alınması məxfi məlumat hesab oluna bilməz. Hətta ötən ilin oktyabr ayında mətbuatda “İmprotex İndustries” MMC-nin ANAMA-ya 4 ədəd “Revival P” mexaniki minatəmizləmə maşını təhvil verdiyi barədə məlumat yayılmışdı. Bu səbəbdən də, ANAMA-nın satınalma prosesini bu şəkildə keçirməsi başadüşülən deyil.

### Növbəti müəmmalı tenderlər

Ötən ayın sonu ANAMA-nın daha bir tenderinin nəticəsi elan olundu. Bu zaman məlum oldu ki, Ağdam, Füzuli və Xocavənd Rayonlarında Bərpa,- Tikinti və İdarəetmə Xidməti “Xocavənd rayonu, Hadrut qəsəbəsinin və Tuğ kəndinin sahədaxili mühəndis kommunikasiyaları sistemləri (su, kanalizasiya və qaz xətləri), daxili yol və səkilərin tikinti-quraşdırma işlərinin satın alınması” tenderinin qalibi “İnşaatçı-Neftçi” MMC olub. Qalib şirkətlə 12 583 453 manat məbləğində müqavilə imzalanıb. Hansı ki, bu şirkətin adı indiyədək bir çox maliyyə maxinasiyalarında çəkilib, hətta onu himayə edən məmurun hesabına dəfələrlə audit yoxlamalarından yayınmağa da nail olub.

Ardınca isə ANAMA-nın keçirdiyi daha bir açıq tender müsabiqəsinin qalibi açıqlandı. Bəlli oldu ki, ANAMA-nın 181 min 17 manat 90 qəpik dəyərindəki tender müsabiqəsini “Universal-RA” MMC (VÖEN - 1301581481) udub.

“Universal-RA” MMC ANAMA-ya 31 min 500 kiloqram quru it yemi satacaq.

Hansl ki, ondan bir həftə öncə ANAMA Xorvatiyanın ”Piper d.o.o.” şirkətindən 202 min 500 dollar (344 min 250 manat) dəyərində minaaxtaran itlər almaq üçün satınalma müqaviləsi imzalamışdı.

Məlumat üçün bildirək ki, ANAMA-ya it yemi satacaq “Universal-RA” MMC 24 dekabr 2007-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 20 manat olan şirkətin qanuni təmsilçisi Abbasov Rəşad Bəhlul oğludur. Ən maraqlısı isə odur ki, ANAMA-nın 181 min manatlıq tenderini udan bu “20 manatlıq şirkətin” “Universal-RA” MMC-nin həmin vaxt dövlət büdcəsinə 13 min 50 manat 78 qəpik vergi borcu olub. Bu haqda Dövlət Vergi Xidməti tərəfindən məlumat verilib.

### Agentlik üçün 1,1 milyonluq texniki baza

Son olaraq isə agentlik “Bakı şəhəri, Binəqədi şossesi 53 ünvanında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi üçün texniki bazanın tikintisi işlərinin satın alınması” tenderinin nəticələri elan etdi. Məlum oldu ki, bu tenderin qalibi “Şəmkir Tikinti-18” ASC olub. Qalib şirkətlə 1 147 146 manat məbləğində müqavilə imzalanıb.

“Şəmkir Tikinti-18” ASC də ölkəmizdə bir çox iri layihələrin icrasını həyata keçirdiyindən faktiki olaraq “tender kralı” kimi tanınır. Deməli, bu şirkətin arxasında da hansısa məmur dayanır. Əks halda, indiki reallıqda sıradan bir vətəndaşa bu qədər böyük imkanlar tanınması absurd olar.

### ANAMA-nın faydalı işləri və “yediyi” milyonlar

Əlbəttə, ANAMA-nın xalqımız üçün çox böyük, faydalı işlər gördüyü danılmazdır. Məhz bu agentliyin əməkdaşlarının səyi nətiəsində bu gün vətəndaşlarımız işğaldan azad olunan ərazilərdə sərbəst şəkildə gəzib-dolaşa bilirlər. Doğrudur, hələ minatəmizləmə işləri tam yekunlaşmayıb. Amma inanırıq ki, qarşıdakı bir neçə il ərzində bütün ərazilərimiz minalardan təmizlənəcək və vətəndaşlarımız Vətənin hər qarışında təhlükəsiz şəkildə addımlaya biləcək.

Şübhəsiz, minatəmizləmə işləri heç də asan başa gələn bir proses deyil. Bunun bəzi hallarda ANAMA əməkdaşlarının həyatını itirməsi ilə nəticələndiyi də bizlərə bəllidir. Amma bütün bunlar onu deməyə əsas vermir ki, agentlik rəhbərliyi dövlətin, xalqın pulunu talan etməlidir.

Əlbəttə, burada yalnız müəmmalı tender maxinasiyalarından söhbət getmir. Son vaxtlar agentliklə müqavilə bağlayan şirkətlər arasında da narazılıq yaranıb. Onlar iddia edirlər ki, görülən işləri vaxtına yerinə yetirsələr də, ANAMA-dan pullarını almaqda çətinlik çəkirlər. Əksər hallarda isə müqavilədə qeyd olunan vəsait onlara kəsirlə verilir.

Bu baxımdan, müvafiq qurumlar tərəfindən ANAMA-nın fəaliyyətinin dərindən araşdırılmasına ehtiyac olduğunu əminliklə deyə bilərik.

**“Hürriyyət”**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

Hürriyyət

Layihə

SİZİN ÜÇÜN QƏZET

№38 (3329) 8 Oktyabr / 2024-cü il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**“Hürriyyət” qəzetinin 27.08.2024-cü il sayında jurnalist Aynur İsmayılın Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının direktor müavini Aytən Oktayqızı (Baxşiyeva) ilə müsahibəsinin ictimailəşdirildiyi “Azərbaycanda musiqi məktəblərini kimlər və nə üçün bağlamağa çalışırlar?” adlı kiçik yazısına rast gəldim. Yazının başlığını oxuya-oxuya, ortasındakı milli musiqimizin bəzi korifeylərinin bir qədər pərişan çöhrələri və sanki millətimizin, cəmiyyətimizin, dövlətimizin üzünə zillənmiş tənəli baxışları gözümə sataşdı.**



# Mədəniyyətimiz hansı əsaslar üzərində ucalır?

Bizim milli musiqimiz qədər zəngin ikinci milli musiqi yoxdur, - desəm heç də yanılmaram. Millətimizin min illər boyu şifahi olaraq nəsildən-nəsilə ötürülüb, sonuncda XX əsrdə yazıya (nota) köçürülən muğamatımıza tay və ya rəqib ola biləcək ikinci bir musiqi mövcud deyil. Birincisi, ona görə ki, dünya xalqlarının heç birinin musiqisi bizim muğamatımız qədər həm milli, həm də belə demək mümkünsə, yeddi arxadan dönən yad millətlərin milli musiqi alətlərinin əksəriyyətində yüksək və normal səviyyədə ifa edilə bilir. Bu xüsusiyyət başqa millətlərin musiqilərində ya çox aşağı səviyyədə, ya da yox dərəcəsindədir. Hətta ifa edildiyi halda belə, muğamımızın effektini verə bilmir.

İkincisi, başqa milli musiqilərin heç biri bizim muğamatımız qədər başqa millətlərin musiqisi ilə sintez olmaq qabliyyətinə də malik deyil. Bundan əlavə, başqa millətlərin hətta böyük və məşhur dahiləri belə bizim musiqi dahilərimiz qədər bunu indiyədək edə bilməmiş və bundan sonra da çətin ki, edə bilsinlər. Çünki, hətta onların musiqi duyumu ən yüksək səviyyədə olsa belə, öz milli musiqilərində muğamatda olan bu xüsusiyyətlər yoxdur. Məsələn, dünyanın ən inkişaf etmiş millətlərinin ən zəngin, mürəkkəb və məşhur musiqi janrı olan opera ilə milli muğamatımızın sintezini yaratmaqla, musiqi sənətinin milli opera musiqi janrımızı yaradan Üzeyir bəy Hacıbəyli qəzetdəki şəkildən pərişan, ancaq qürurla, tənəli baxışları ilə sanki 1937-ci illərdə NKVD-nin millətimizin varlığına, onun düşünən beyinlərinə, dahi alim və sənətkarlarına qənim kəsilib, millətimizin qaymaqlarını məhv edib, ayranlarının zehnini bolşevizmin “sosializm” adı ilə, saxta ideologiyası olan dövlət quldarlığı vasitəsilə noxtalayaraq rus imperiyasının quluna çevirən rus, erməni müstəntiqlərinin, “ikilik”, “üçlük” adlandırılan səhra məhkəmələrinin hakimlərinin xortlayıb dirilən varislərindən bu gün, artıq 32 ildən bəri müstəqil sayılan Azərbaycanın millətindən, mədəniyyətindən nə istədiklərini soruşmaq istəyirdi. Şəkli qəzetdəki fotoda olmayan digər musiqi dahimiz Vaqif Mustafazadənin milli muğamatımızla hələ də dünyada inkişafdan geri qalmış, yarımvəhşi hesab edilən zəncilərin milli musiqisi olub, özlüyündə bizə adi səs yığını təsiri bağışlayan caz ilə sintez edərək möhtəşəm, milliyyətindən asılı olmayaraq zərrə qədər musiqi duyumu olan hər bir kəsi riqqətə gətirə, ruhunu oxşaya biləcək fundamental musiqi növümüz olan muğamağımızın zənginliyini, möhtəşəmliyini, ümumbəşəri musiqi anatomiyası olduğunu bir daha sübut etdi.

1920-ci ildə bolşeviklərin, milli öndərlərimizin 1918-ci ildə Şərqdə yaratdıqları ilk, o dövr üçün ən demokratik sayılan və olan Azərbaycan Demokratik Respublikasının bütün ərazilərini işğal edib, əhalisini isə qula çevirdikdən sonra zaman-zaman, nəsil-nəsil millətimizin torpaqlarını hissə-hissə müxtəlif bəhanələrlə başqalarına peşkəş etmiş, millətimizin xeyli hissəsini öz doğma yurdlarından sürgün etmiş, didərgin salmış, qətlə yetirmiş, insanlarımızı müxtəlif təqiblərə, mərhumiyyətlərə, qadağalara məruz qoysa da, istedadlı insanlarımız bu maneələri aşa, çətinlikləri yararaq mədəniyyətimizi, yəni, mədəniyyətimizin əsas sütunu olan dilimizi, ədəbiyyatımızı, incəsənətimizi, o cümlədən musiqimizi xeyli dərəcədə inkişaf etdirə bilmişlər.

Qeyd etdiyim kimi Üzeyir Hacıbəyov, Vaqif Mustafazadə kimi musiqi dühalarımız yeni, zəngin məzmun və koloritli musiqi növləri yaratmış, muğamlarımızın insan ruhunu oxşayan sədalarından əlavə, insanların zehninə, şüuruna güclü xoş təsir etməklə bərabər, onlarda humanizm, ədalət, məhəbbət hissi aşılayan qəzəllər yazaraq, muğam musiqimizin zənginliyini, ecazkarlığını, fəlsəfəsini daha da qat-qat artıran Əliağa Vahid və s. qəzəl yazan şairlərimiz bolşevizmin vəhşi qadağa və təpkilərinə baxmayaraq, milli mədəniyyətimizə böyük töhfələr verə bilmişlər.

Bolşevizm bir qədər əhilləşib, dünya millətləri, dövlətləri önündə özlərini humanist qələmə vermək xatirinə bir qədər liberallıq çuluna bürünsə də, beynəlxalq müstəvidə o qədər də kəskin nəzərə çarpmayıb, dövlətdaxili qaydalar kimi qəbul edilsə də, mahiyyət etibarilə insan hüquqlarının vəhşicəsinə tapdalanması olan qaydalar tətbiq etməklə istedadlı, yaradıcı insanların inkişafının qarşısına sədd çəkərək, onları hüquqsuz qul halında saxlamağa çalışırdı. Belə qaydalardan biri fitri istedadı olub, ibtidai musiqi təhsili olsa da musiqimizin mahnı janrında gözəl, xalq tərəfindən sevilərək, qəbul edilib, məşhurlaşan, dillər əzbəri olan mahnıların musiqisini yazan bəstəkarların müəlliflik hüququnu rəsmən tanımaqdan imtina edilərək, onların bəstələrini xalq musiqisi kimi qələmə verilməsi idi. Belə musiqi bəstələyənlər bizdə tarixin dərinliyindən bəri daim olub. Sadəcə olaraq köhnə zamanlarda insanların müəlliflik hüquqlarını qeydə alan qurumlar olmadığı və musiqinin məzmunundan bəstəçinin adı məlum olmadığından zaman-zaman musiqini bəstələyənin adı yaddaşlardan çıxdıqca, sonrakı nəsillər onları xalq musiqisi, yəni adı müəllifin deyil, onu yaradanın milləti (xalqı) məlum olan musiqi kimi qəbul etmişlər.

1960-cı illərdə, ümumiyyətlə bolşeviklərin hakimiyyəti dövründə müəllif hüquqlarını rəsmən qeydə alan qurumlar olsa da, onlar “bəstəkarlıq təhsili yoxdur” bəhanəsi ilə təbiətdən gələn fitri istedada malik olanların inkişafını belə boğurdular. Həm də belə vəhşi, mürtəce qayda təkcə musiqi sahəsinə deyil, bütün sahələrə tətbiq edilirdi.

***(Ardı var)***

**Şapur QASİMİ**

# ADP Rusiyanı sülh sazişinə əngəl olmaqda ittiham edir

## Partiya Putin Rusiyasının Azərbaycan və Ermənistana bu və ya digər formada təzyiq edərək sazişin uzadılması ilə bağlı cəhdlərini pisləyib

**Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən “Hürriyyət”ə bildirilib ki, toplantı iştirakçıları son günlər İran-İsrail arasında baş verən hərbi qarşıdurmadan və bu qarşıdurmanın Yaxın və Orta Şərqdə sülhün və təhlükəsizliyin pozulmasına gətirə biləcəyi ehtimalından ciddi narahat olduğunu bildirib. Adı çəkilən hər iki ölkə ilə iqtisadi, siyasi, tarixi yaxınlıq, xüsusiilə İsraillə strateji, hərbi əlaqələr həlqəsinə daxil olan dövlətimizin hazırkı vəziyyətdə neytrallığını saxlamağın vacibliyinə diqqət çəkən partiya yetkililəri bu dövlətlərə çağırış edərək hərbi münaqişədən yayınmağı və münasibətlərini beynəlxalq hüququn ana prinsipləri ilə tənzimləməyi onların diqqətinə çatdırıb.**

İdarə Heyəti Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması ilə bağlı yaranan maneələrdən, Putin Rusiyasının hər iki ölkəyə bu və ya digər formada təzyiq edərək sazişin uzadılması ilə bağlı cəhdlərini qətiyyətlə pisləyib və hakimiyyəti təhrikedici güclərin Ermənistanı hərbi münaqişəyə sürükləmədən əvvəl sülh sazişini gerçəkləşdirməyə, Cənubi Qafqazın aparıcı dövləti olaraq regionda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində səylərini gücləndirməyə çağırıb.

İdarə Heyəti ABŞ konqresmenlərinin, bir sıra beynəlxalq təşkilatların Azərbaycanda söz, mətbuat, ifadə, birləşmə azadlığının, qanunun aliliyi prinsipinin pozulması, eyni zamanda etnik ermənilərin hüquqlarının gözardı edilməsi ilə bağlı qaldırdıqları məsələyə münasibət bildirib. Qeyd edilib ki, insan hüquq və azadlıqları ilə bağlı kollektiv Qərbin irəli sürdüyü tələblər gerçəkliyi əks etydirir və hakimiyyət bu sahədə üzərinə götürdüyü beynəlxalq öhdəlikləri yerinə yetirməli, ölkədə hər kəsin azad fəaliyyətinə yol açan demokratik idarəetməni təmin etməlidir. Etnik ermənilərin Azərbaycanda hüquqlarının pozulması məsələsinə münasibət bildirən rəsmilər Qərbin bu cür yanaşmalarının əsasız olduğunu, onların könüllü olaraq ölkəmizi tərk etdiyini və istədikləri zaman çərçivəsində, Azərbaycan qanunlarına tabeçilik göstərmək şərti ilə geri qayıtmalarında heç bir problem olmadığını bildirib və Qərb dövlətlərini zaman-zaman ölkəmizə qarşı tətbiq etdikləri ikili standartdan əl çəkməyə, hər iki xalqın suveren hüquqlarına ədalətlə yanaşmağa səsləyib

İdarə Heyəti Rusiya Xarici Kəşfiyyat Xidmətinin başçısı Narişkinin Azərbaycana səfəri, səfər zamanı Azərbaycan və Rusiyanı gözləyən xarici və daxili təhdidlərə birgə cavab verməli olduğunu dilə gətirməsini, sosial-siyasi böhran zamanı yarana biləcək təhlükələri aradan qaldırmağın zəruriliyini, sistemdən kənar müxalifətin zərərsizləşdirilməsi kimi səsləndirdiyi bəyanatlara münasibət bildirib. Partiya yetkililəri Rusiya rəsmisinin əvvəlki dövrlərdə olduğu kimi özünü tabeliyində olan ölkənin canişini kimi təqdim etməsini, dövlətimizin müstəqil xarici və daxili siyasətini müəyyənləşdirən persona rolunda çıxış etməsini qətiyyətlə pisləyib və bu hərəkətləri ölkəmizin müstəqilliyinə, suveren hüquqlarına müdaxilə və yeni işğal cəhdi kimi dəyərləndirib.

İdarə Heyəti nufuzlu “Transparency İnternational” təşkilatının 2023-cü il üzrə dünya ölkələrində korrupsiya göstəriciləri ilə bağlı açıqladığı hesabatında Azərbaycanın 180 ölkə sırasında 157-ci yerdə qərarlaşmasını ciddi narahatlıqla qarşılayıb və hakimiyyəti ölkənin bel sütununu qıran, iqtisadi qüdrətini zəiflədən, siyasi çəkisini azaldan, demokratik nüfuzunu sıfırlayan korrupsiya fasktlarına qarşı amansız mübarizə aparmağa, korrupsiya və rüşvətin kökünün kəsilməsi üçün ciddi islahatlar keçirməyə çağırıb.

İdarə Heyəti bir sıra sahələr üzrə cərimələrin ifrat dərəcədə artırılacağı ilə bağlı müzakirələrə də münasibət bildirib və bu cərimələrin vətəndaşların sosial vəziyyəti, aldıqları əmək haqqı ilə ziddiyyət təşkil etdiyini diqqətə çəkib və ölkədə sosial-iqtisadi gərginliyə aparan bu cür radikal cərimə artımlarının yolverilməz olduğunu qeyd edib.

**Hazırladı: KƏNAN**

# Saxta deputatların



## Onlar ABŞ-a "meydan oxumaqla", öz mandatlarının "haqqını verdilər"

**Bu həftə Azərbaycan və ABŞ arasında qarşılıqlı söz savaşı gündəmə hakim oldu. İlk öncə bu qarşılıqlı deyişmənin nədən qaynaqlandığına diqqə edək. Qəribədir ki, Vaşinqton-Bakı deyişməsi mübahislərə mövzu olan Aşıq Ələsəgərin heykəlinin qalmaqallı açılışı ilə demək olar eyni vaxtda trendə girdi. Bakının Vaşqintona qarşı "demarşı"nı saxtalaşdırılmış seçkilərlər Milli Məclisdə mandata yiyələnən əsasən yeni deputatlar səsləndirdilər. Daha doğrusu, imzaları ilə deputat kreslosunun "haqqını verdilər".**

Əlbəttə, Azərbaycan analoqsuz ölkə olduğunu bu "demarş"da da biruzə verməli idi. Çünki, mandatı xalqdan yox, təmsil etdikləri maraq qruplarından alan deputatlar onları seçdirənlərə "sağ ol"u ictimai şəkildə deməli idilər. Belə ki, "çiçəyi burnunda" deputatların ABŞ-a "sərt bəyanatı" "Kremlə sədaqət andı" idi. Yəni işin içində iş var.

Gələk, görək dünyanın supergücünə - ABŞ-a "meydan oxumaq" fikrinə düşən deputatlar bu ilhamı hardan alıb? Bir az da biz mövzunun üstündə baş sındıraq, görək müzakirənin son mənzili hara çıxır...

Rusiyanın Ukraynada bir az "başının açılması" ilə Gürcüstan və Azərbaycan-Ermənistanla məşğul olmağa daha çox fürsəti yaranıb. Əslində, ABŞ-ın Azərbaycana qarşı qərəzli duruşu kimi görünən reaksiyasına yalnızca bizə qarşı ortaya qoyulmuş mövqe kimi baxmaq olmaz. Məsələyə geniş çərçivədən yanaşmaq lazımdır, yəni ABŞ-ın Cənubi Qafqaza nəzəri kimi.

2024-cü ilin 31 iyulunda ABŞ dövlət katibinin Avropa və Avrasiya üzrə köməkçisi Ceyms O'Brayen belə br açıqlama ilə çıxış etdi ki, ABŞ "Azərbaycan və Ermənistan üzərindən marşrut aça bilsə, Məkrəzi Asiya dünya bazarlarına çıxış əldə edəcək və Rusiya və Çindən asılılığı azaldacaq". Senatın Xarici Əlaqələr Komitəsinin dinləmələrində çıxış edən ABŞ rəsmisi, Ermənistanın baş naziri Nikol Paşinyanın "Rusiya ilə münasibətləri pozmaq" üçün atdığı "cəsur addımları" alqışladı. O, həm də dedi ki, "bu, Rusiya ilə əhəmiyyətli dərəcədə qopmaya gətirib, Ermənistan əhalisinin çox hissəsi Rusiyadan uzaqlaşmaq istəyir". "Beləliklə, biz (yəni Amerika hakimiyyəti) bunun baş verməsi üçün şərait yaradırıq", - O'Brayen vurğuladı.

Komitə sədri Ben Kardinin ABŞ-ın "daha ??sıx əməkdaşlıq" tələblərinə necə cavab verməsi ilə bağlı sualını cavablandıran O'Brayen ABŞ dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen arasında görüşdə açıqladı ki, Ermənistanın baş naziri Nikol Paşinyan "Ermənistanın Rusiyadan asılılığını azaltmağa kömək edəcək yeni platforma" yaradıb. "O, demək olar ki, iqtisadi və enerji baxımından Rusiyadan tamamilə asılıdır və biz diversifikasiyaya nail olmalıyıq", - xarici siyasət rəsmisi dedi. Eyni zamanda, o bildirdi ki, ABŞ Ermənistan və Azərbaycan arasında sülh arzusunun mümkün qədər tez razılaşmaya çevrilməsi üçün səy göstərir, Rusiya isə hadisələrin öz şərtləri ilə inkişaf etməsini təmin etməyə çalışır ki, bu da qıcıqlanmaya səbəb olur.

O'Brayenin bildirdiyinə görə, ABŞ-ın Ermənistanla Azərbaycan arasında sülh sazişləri bağlamaq istəyi ondan irəli gəlir ki, "Mərkəzi Asiyanın inanılmaz zəngin ölkələri dünya bazarlarına Rusiya və ya Çin vasitəsilə çıxmaq imkanlarına malikdir. "Əgər biz Azərbaycan və Ermənistan üzərindən marşrut aça bilsək, onlar dünya bazarlarına çıxış əldə edəcək, Rusiya və Çindən asılılığı azaldacaqlar", - deyə o əlavə etdi.

Bundan əvvəl isə, 15 noyabr 2023-cü ildə həmin O'Brayen bildirmişdi ki, Azərbaycan və Ermənistan öz gələcəklərini Rusiya-İran oxundan kənarda qura bilərlər: "Düşünürəm ki, Moskva və Tehranın region təhlükəsizliyinin əsas iştirakçıları olduğu Rusiya-İran oxu ətrafında gələcək həm Azərbaycan, həm də Ermənistan hökumətləri üçün qeyri-sabit və arzuolunmazdır. Bakı və İrəvan indi fərqli qərar qəbul etmək imkanı var". Bu açıqlamadan təxminən bir il keçəndən sonra - oktyabrın 5-də O'Brayen Rusiya və İranın yaratdığı təhlükəsizlik arxitekturasının Cənubi Qafqaz ölkələri üçün arzuolunmaz olduğunu bildirdi. "Regionda (Cənubi Qafqazda) təhlükəsizliyin əsas iştirakçıları kimi Rusiya və İran oxu ətrafında qurulan gələcək Ermənistan və Azərbaycan hökumətləri üçün də qeyri-sabit və arzuolunmazdır", - deyə O'Brayen təmsil etdiyi dövlətin mövqeyini ifadə etmişdi.

Ədalət naminə deməliyik ki, O'Brayen dediyi sözlərdə yanılmır. Üstəlik, onu da etiraf etməliyik ki, 2020-ci il 44 günlük II Qarabağ müharibəsi zamanı ABŞ Azərbaycanın torpaqları işğaldan azadetmə hərəkatına göz yumdu ki, bu da rəsmi Bakının işinə yaradı, hərbi əməliyyatlar fasilə yaranmadan aparıldı. Böyük ehtimalla Rusiyanın orbitindən çıxa bilməməsini torpaqların 30 ildir ki, işğalda qalması ilə əsaslandıran Bakı qələbədən sonra Rusiyanın təsirindən çıxmaq üçün boynuna öhdəlik götürüb. Çünki Vaqşinton başqa şərtlə erməni cığalının başının əzilməsinə göz yummazdı.

Beləliklə, Vaqşinton Bakı nəfəsini dərib gücünü toplayanadək gözlədi. Görəsən, nəyin qarşılığında? ABŞ-ın göz yummasının əvəzində ona verilən vəd nə ola bilərdi? Şübhəsiz, ilk növbədə Rusiyanın orbitindən çıxmaq. Çünki Çinlə gözlənilən qarşıdurmaya hazırlıq görən Vaşqinton o vaxt yetişənə qədər Cənubi Qafqaz və Yaxın Şərqdə hər şeyi yerbəyer etmək istəyir. Hələlik nişangahı Pekinə tərəf tuşlamış olan Vaşqinton hədəfi Moskvaya da çevirə bilər. Qarşıdurmanın yekunu kimi Pekinlə Vaşqinton Rusiyanın sərvətlərini də bölmək üstündə razılaşa bilərlər.

Əslində, ABŞ-ın Çinlə Rusiya üçbucağında Pekini məğlub etməsində məntiq yoxdur, çünki ov şikarı kimi Rusiya öz sərvətləri ilə daha çox iştah doğrurur. Bəli, dediyimiz kimi, ABŞ Çinin iqtisadi baxımdan daha çox şişməsinin qarşısını kəsməyi onun tranzit marşrutlarının qarşısını kəsməkdə görür, amma təbii sərvətlər baxımıdan Rusiya daha iştahlı ovdur.

Yuxarıda da yazıldığı kimi, ABŞ düşünürdü ki, "Azərbaycan və Ermənistan üzərindən marşrut aça bilsə, Məkrəzi Asiya dünya bazarlarına çıxış əldə edəcək və Rusiya və Çindən asılılığı azaldacaq. Daha doğrusu, Mərkəzi Asiyanın təbii sərvətlərinin dadına baxmaqdan Rusiya ilə Çini kənarda qoymaq, bu sərvətlərin yalnız öz nəzarəti altında dünya bazarlara axmasını təmin etmək ki, bundan da öz payını alsın.

Rusiyanın Cənubi Qafqazdan çıxarılması üçün bütün cinahlarda çalışan Vaşqonton Gürcüstan və Azərbaycanda buna nail ola bilməsə də, Ermənistanla vəziyyət fərqlidir. İqtisadi və siyasi baxımdan nə qədər Rusiyadan asılı olsa da, İrəvan Moskvaya qarşı dirənməyə çalışır.

Məncə, Rusiyanın Tiflis və Bakıya "ağzının sulanaraq tamahlanması" kontekstində Gürcüstandakı duruma baxmaqda da yarar var. Məlumdur ki, tezliklə Gürcüstanda parlament seçkiləri baş tutacaq. "Gürcü arzusu"nun sponsoru Bidzina İvanaşvili guya Rusiyanın üsyankar Abxaziya və Cənubi Osetiyanı Gürcüstanın "ağuşuna qaytaracağı" ümidini satışa çıxarsa da, onun yalanı ifşa oldu. Öncə ondan başlayaq ki, o, bu yalanı niyə ortaya atmışdı? Gürcülərin Rusiyaya ürək qızdırıb, ona etibarın göstəricisi kimi rusbaş "Gürcü arzusu"na səs verməsi, parlamentin yenə rus orbitində qalması, ölkənin də "Gürcü arzusu"nun cəngində qalması üçün bu yalan vacib idi. Amma bu o demək olacaq ki, Gürcüstan tamamilə - yerli-dibli rus təsirinə girəcək.

Yeri gəlmişkən, Rusiya Müdafiə Nazirliyinin Cənubi Osetiyada rus hərbi bazası yerləşdrilməsi üçün torpaq ayrılması ilə bağlı danışıqlar aparması Moskvanın İvanaşvilini, daha doğrusu seçkilərdə qələbə qazanmaq üçün gürcü xalqını barmağına doladığını ortaya çıxardı. Maraqlıdır ki, bu məlumat Tiflis meri və "Gürcü arzu-

> Komitə sədri Ben Kardinin ABŞ-ın "daha ??sıx əməkdaşlıq" tələblərinə necə cavab verməsi ilə bağlı sualını cavablandıran O'Brayen ABŞ dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen arasında görüşdə açıqladı ki, Ermənistanın baş naziri Nikol Paşinyan "Ermənistanın Rusiyadan asılılığını azaltmağa kömək edəcək yeni platforma" yaradıb. "O, demək olar ki, iqtisadi və enerji baxımından Rusiyadan tamamilə asılıdır və biz diversifikasiyaya nail olmalıyıq", - xarici siyasət rəsmisi dedi...

# Rusiyaya "sədaqət andı"



su"nun baş katibi Kaxa Kaladzeninin Sergey Lavrovun Moskvanın Suxumi və Tiflis arasındakı münasibətin normallaşamsına töhfə verməyə hazır olması barədə bəynatına münasibət bildirməsindən sonra gəlib. Kaladze Kremlin bu mövqeyini alqışlayıb və bildirib ki, Rusiya "sözdən əmələ keçməli", Abxaziya və Cənubi Osetiyadan hərbi bazalarını çıxarmalıdır.

Əslində məşhur Zatulin də İvanaşvilinin bu fırıldağını ifşa etdi və bildiridi ki, Abxaziya ilə Cənubi Osetiya Gürcüstana qayıtmayacaq: "Normallaşma rus qoşunlarının çıxarılmasını nəzərdə tutur? Bizim Abxaziya və Cənubi Osetiya ilə təhlükəsizlik məsələlərində, hərbi məsələlərdə və s. müqavilələrimiz var. Heç kim bu məsələni müzakirə etmir, Lavrov dediyini dedi, o, qoşunların çıxarılmasını nəzərdə tutmayıb. Məsələ ondadır ki, Abxaziya, Osetiya və Gürcüstandakı reallıqları tanımaq, dövlətlərarası münasibətlər çərçivəsində hansısa real qarşılıqlı fəaliyyət formalarını qurmaq lazımdır. Lavrovun sözləri Rusiyanın Cənubi Osetiya və Abxaziyanın Gürcüstana qayıtmasında maraqlı olması kimi başa düşülməməlidir. Bu vaxt çoxdan keçib. Əgər onlar bir-biri ilə iqtisadi işgüzar əlaqələr qururlarsa, bu, müsbət haldır".

Deməli, məlum olur ki, "Gürcü arzusu" Rusiya XİN rəhbəri Lavrovun BMT 79-cu sessiyasında dediklərini təhrif edib və öz istədiyi kimi qələmə verib. Buna cavab olaraq, "Gürcü Arzusu"nun icraçı katibi Mamuka Mdinaradze oktyabrın 6-da bildirdi ki, Gürcüstan özünü elan etmiş Abxaziya və Cənubi Osetiya respublikalarının müstəqilliyini tanımaq və onlarla konfederasiya yaratmaq fikrində deyil.

Beləliklə, görünən odur ki, Rusiya Tiflislə Bakı üzərinə ənənəvi kolonial məqsədlə hücuma keçib, onun ikisini də orbitindən buraxmaq istəmir.

Gürcüstandakı seçkilərdən danışdıq. Məlumdur ki, seçicilərin səsini almaq üçün iz azdıraraq Rusiyanın adından yalan danışan İvanaşvilinin "kələyini ancaq gürcülər kəsə bilər". Əks halda Gürcüstanda da Azərbaycanda səhnələşdirlib nümayiş olunan saxta parlament seçkilərinin fraqmenti oynanacaq. Sentyabrın 1-də Azərbaycanda baş tutmuş kimi qeydə alınan saxta seçkilər bu il iyunun 28-də növbədənkənar elan edilmişdi. 2020-ci ildə 44 günlük müharibəyə göz yummağın qarşılığı və ABŞ-ın mükafatı yalnız şəffaf seçkilər keçirilməsi və parlamentin rusbaşlardan təmizlənməsi vədi ola bilərdi. Çünki Vaşinqton əvəzində heç bir vəd almadan Ermənistanı qurban verməyə havayı göz yuma bilməzdi. Bu məntiqsiz olardı. Böyük ehtimalla Kremlin orbitindən çıxmağı boynuna götürən Bakı təmizləməni parlamentdən başlamalı olacaqdı. Amma seçkidən bir-iki gün əvvəl özünü Bakya hövlank yetirən Putin seçkilərə müdaxilənin və əvvəlki rusbaş deputatların saxlanmasının diqtə edilməsi siqnalını verdi. Nəticə o oldu ki, Putinə qarşı ABŞ-a verdiyi Moskvanın orbitindən çıxmaq sözünü yerinə yetirə bilməyən Bakı Rusiyadan qopmağın ilk addımını ata bilmədi.

Beləliklə, parlament seçkilərinin növbədənkənar keçirilməsinin də bir mənası qalmadı.

Gürcüstandakı seçkilərdən danışdıq. Məlumdur ki, seçicilərin səsini almaq üçün iz azdıraraq Rusiyanın adından yalan danışan İvanaşvilinin "kələyini ancaq gürcülər kəsə bilər". Əks halda Gürcüstanda da Azərbaycanda səhnələşdirlib nümayiş olunan saxta parlament seçkilərinin fraqmenti oynanacaq. Sentyabrın 1-də Azərbaycanda baş tutmuş kimi qeydə alınan saxta seçkilər bu il iyunun 28-də növbədənkənar elan edilmişdi...

"Köhnə hamam, köhnə tas" öz yerində qaldı, "dəyirman öz işinə davam etdi, çax-çax isə baş ağrıtdı". Təsadüfi deyil ki, ABŞ Müdafiə Kəşfiyyat İdarəsinin Avropa Avrasiya Regional Mərkəzinin rəhbəri Patrik Prior Bakıya gəldi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşdü. Rəsmi versiyaya görə, görüşdə ABŞ-Azərbaycan münasibətləri və təhlükəsizlik sahəsində əməkdaşlıq müzakirə edilmişdi, amma böyük ehtimalla Bakıya seçkilərin niyə "rusyönümlü" keçirildiyi, parlamentin niyə yenə rusbaş tərkiblə yeniləndiyi əsas müzakirə mövzusu olub.

İndi isə yeni deputatların qələmindən anti-ABŞ məktubunun necə çıxmasına gələk. Əvvəlcə qeyd edək ki, Prezident İlham Əliyev 20 sentyabr tarixini Dövlət Suverenliyi Günü kimi təsis etdi. Rəsmi olaraq, bunu əsas kimi, 19 sentyabrda antiterror əməliyyatı zəmin olaraq göstərilir. Amma bir tərəfdən də 20 sentyabr 1994-cü il eyni tarixdə Azərbaycanın Dövlət Neft Şirkəti ilə 6 ölkənin 10 şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə AMOKO KASPİAN Sİ PETROLEUM LİMİTED, Bİ-Pİ EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED, DELTA NİMİR XƏZƏR LİMİTED, DEN NORSKE STATS OLYESELSKAP a. s, LUKoyl Səhmdar Cəmiyyəti MakDERMOTT AZƏRBAYCAN İNK, PENNZOYL KASPİAN KORPOREYŞN, REMKO XƏZƏR ENERCİ LİMİTED, TÜRKİYE PETROLLERİ A. O., YUNOKAL XƏZƏR, LTD arasında saziş imzalandığı gündür. Bu gün tarixə "Əsrin Müqaviləsi" kimi düşdü və faktiki Azərbaycanın iqtisadi müstəqilliyinin əsasının qoyulduğu, Qərblə iqtisadi işbirliyinə start verildiyi gündür. Həm də bu tarixin anılması, dövlət bayramı statusuna yüksəldilməsi jestdir.

Parlamentin yeni deputatlarının qələmindən çıxan məktubu işıqlandırmayacağam, istəyən saytlardan oxuya bilər. Yalnzı bəzi nüanslara toxunacağam.

Məktubda "Təəssüflə qeyd etmək istərdik ki, bir sıra dairələr Azərbaycanın COP29-a ev sahibliyi edəcəyindən istifadə edərək, Azərbaycana hansısa məsələni qəbul etdirmək fikrinə düşüblər. ABŞ Senatının və Nümayəndələr Palatasının bir qrup üzvünün 2024-cü il oktyabrın 3-də bu ölkənin dövlət katibi Entoni Blinkenə göndərdiyi müraciət də bu qəbildəndir. Açıq şəkildə bildirmək lazımdır ki, sözügedən müraciətin Dövlət Departamenti tərəfindən təşkil edildiyinə dair şübhəmiz yoxdur. Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl şəhərində vurğuladığı kimi, Dövlət Departamentində Azərbaycanı hədələmək üçün özləri özlərinə məktub yazırlar" cümləlləri parlament üzvlərinin ABŞ-ın dünya dövlətləri arasında tutduğu status baxımından ən azı ölkəmizin Vaşqintonla münasibətlərinin pozulmasında niyə maraqlı olduğunun səbəblərini götür-qoy etməyi gərəkdirir.

"Azərbaycana qarşı irqi ayrı-seçkiliyi əhtiva edən, böhtanla dolu, dialoq ruhuna zidd olan, müharibə cinayətkarlarının azadlığa buraxılmasına və Ermənistanın hərbiləşdirilməsinə çağırış edən bu müraciət qəbuledilməzdir, beynəlxalq hüquqa ziddir və ABŞ-nin ikitərəfli münasibətlərin rəvan şəkildə davam etdirilməsində maraqlı olmadığını göstərir" cümlələrindəki hansı irqi ayrı-seçkilikdən söhbət gedir?

Müharibə cinayətkarlarına gəlincə, onlar Rusiyanın diqtəsi ilə həbsxanada bəslənir.

"ABŞ-nin İraq, Əfqanıstan və dünyanın digər müxtəlif bölgələrində törətdiyi müharibələrə" gəlincə, Rusiyanın ABŞ kimi gücü olsaydı ondan heç də geri qalmazdı. Məgər Rusiya SSRİ zamanında Əfqanıstanda eyni vəhşi əməlləri törətməyib? Yoxsa Putin zamanının Rusiyası Çeçenistanda eyni əməlləri törətməyib? Bir neçə il əvvəl Rusiya Qazaxıstana hücum etmədi? Suriyada qırğınlar törətmədi? İrəvanla Bakının barışmasını Moskva çox istəyir? Azərbaycan xalqının mədəni irsinin, məscidlərin, tarixi abidələrin dağıdılmasını, təhqir edilməsini Rusiya nə vaxtsa pisləyib? Yaxud Xocalı cəlladlarına qarşı hansısa bəyanat verdi, eləcə də taleyi bilinməyən 4 min azərbaycanlı itkinlə bağlı səsini çıxardı?!

Azərbaycan indiyə qədər balanslı siyasət yürütmək xəttini izləyirdi. Amma belə görünür ki, yenidən ətə-qana bürünən rusbaş parlament ölkəmizin şimala meyllənməsinə çalışacaq. Təzə deputatlara "start" siqnalının Rusiyanın Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkinin "Azərbaycan və Rusiyanın xüsusi xidmət orqanları ABŞ-dan rusiyalı diplomata qarşı təxribat xarakterli təhlükənin qarşısını birgə alması" haqda açıqlamasından sonra verilməsi də maraq doğurur. Azərbaycan ənənəvi olaraq balanslı xarici siyasət yürütməyə sadiqdir. Əlbəttə, ölkəmizin olduğu mürəkkəb regional şərait bunu diqtə edir və Bakı bu istiqamədə manevrlərlə müvazinəti saxlamağa nail olurdu. Amma hazırkı şərait göstərir ki, Moskva onu da anti-Qərb koalisiyasına qoşmaq fikrindədir. Elə köhnə rusbaş deputatların cərgəsinə qatılan yeni deputatlar da məlum məktubla eyni xəmirdən yoğrulduqlarını etiraf etmiş oldular. Onları parlamentə salan küləyin Moskvadan əsdiyini bir növ məlum məktubla etiraf etmiş oldular. Bu məktub onlar üçün bir növ sədaqət andı oldu. Onların kürsüsünü təmin edən cinah təbii ki, bu gün anti-Qərb mövqeyi tələb edirsə, sabah da anti-Türkiyə tələb edəndə, onlar etimadı doğrultmaqdan ötrü istənilən diqtəni yerinə yetirəcəklər, Moskvaya sədaqətlərini izhar edəcəklər. Lazım gəlsə Azərbaycanı Rusiyanın quyruğuna da qoşacaqlar. O zaman bir daha düşünək ki, bu seçkilərlə niyə vətəndaşların və dünyanın gözünə kül üfürdülər?..

**Ülviyyə ŞÜKÜROVA**




# Gecə saatlarında həyətində saxladığı maşını qəsdən yandırıldı, şikayətinə baxılmır

**Masallı rayonu, Qızılağac kənd sakini Həsənov Əlizaman Əlihəsən oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, maşını qəsdən yandırılsa da, müstəntiq onun işinə baxmır:**

"Mən, Həsənov Əlizaman Əlihəsən oğlu, yazaraq bildirirəm ki, 2020- ci il yanvar ayının 4-də, saat 4:40 radələrində həyətimdə saxladığım, dəyəri 15 min manat olan "Mercedess" markalı maşınımın üzərinə benzin tökülərək, yandırılmışdır. DİN-in 102 qaynar xəttinə və polis bölməsinə şikayətimi dəfələrlə bildirmişəm. İlk gündən rayon polis şöbəsi bu işin üstünü açmaqda maraqlı olmadı.




Mənim çoxsaylı şikayətlərim və müraciətlərimdən sonra, nəhayət 2021-ci il oktyabr ayının 25-də maşını yandıranlar tapıldı. İki nəfər olduqları aşkarlandı. Tutulan şəxslərin telefonları bir adamın adına çıxdı. Hətta polis şöbəsində olarkən mənə bildirdilər ki, maşının yandırılmasının sifarişi Rusiyadan verilib. Həmin şəxsin əlaqə nömrəsi də bəllidir.

Bütün bunlara baxmayaraq, İstintaq idarəsinin rəisi Cahangir Hüseyinov 3 ildir ki, müraciətə baxmayaraq, müstəntiq təyin etmirdi. İyul ayında rəis müstəntiq ayrılması üçün tapşırıq verir. Rayon prokurorluğu tərəfindən də göstəriş verilir...

Bir müddət sonra Cahangir Hüseynovun qəbuluna getdim. 1 saatlıq mübahisədən sonra işi Babək adlı müstəntiqə həvalə etdi. Həmin müstəntiq də 5 həftədir ki, işlə bağlı heç bir tədbir görmür. 5 həftədir yollarda qalmışam. Sonradan məlum oldu ki, o, hələ heç sənədlərlə tanış olmayıb, qarşı tərəfi çağırıb maraqlanmayıb. Yəni müstəntiq işin açılmasında maraqlı olmaq əvəzinə, işi başından edir, sanki açılmağını istəmir.

Ən maraqlı məqam da budur ki, İstintaq İdarəsinin rəisi Cahangir Hüseynov mənə məsələnin bağlanılması üçün 15 min manat təklif edir. Mənim üçün maraqlıdır ki, bir müstəntiq hansı səbəbə görə belə təklif etsin?

Mən sizin sayt və qəzet vasitəsilə səlahiyyətli qurumlardan xahiş edirəm ki, məsələ ilə bağlı mənə kömək etsinlər".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Kürdəmirə getmək üçün Bakıdan yola düşdü, 8 ildir bir xəbər yoxdur

**Kürdəmir rayonu, Bağman kənd sakini Cəbrayılov İlqar İsrayıl oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, qardaşı 2016-cı ildə naməlim şəxslər tərəfindən oğurlanıb, hələ də tapılmır:**



"Mən, Cəbrayılov İlqar İsrayıl oğlu, yazaraq qardaşım Cəbrayılov Vüqar İsrayıl oğlu 1973-cü ildə Kürdəmir rayonun Bağman kəndində anadan olub. Ailəlidir, 3 uşağı var.

2016-cı ildə qardaşım maşınını satıb, təxminən 30-35 baş quzu aldı. O, bu quzuları kökəldib, Bakıda Elməddin adlı qəssaba satdı. Qəssab pulunu ödəməmişdi. Demişdi ki, gələrsən haqq-hesab edərik. Onun dediyinə görə, qardaşım qəssabdan pulunun böyük hissəsini alıb, müəyyən qədər borc qalıb.

2016-cı il, oktyabrın 13-də qardaşım Vüqar Cəbrayılov səhər tezdən Bakı şəhəri, Sabunçu rayonu, Ramana qəsəbəsindən - bacımgilin evindən çıxaraq, qalıq pulunu almaq üçün qəssabın yanına gedib. Qəssab da deyib ki, hələ səhərdir, ət satmamışam, biraz gözlə, nə satsam pulunu sənə verərəm. Bu zaman qardaşım bildirib ki, mən rayona gedirəm, qalan pulu əmim oğlu Cəbrayılov Yaşar Eldar oğluna verərsən. Həmin vaxt əmim oğlu da qəssabxananın yanına gəlib. Vüqardan soruşub ki, hara gedirsən? Qardaşım da Kürdəmirə gedəcəyini bildirib. Deyib ki, getmə, sabah maşınla mən də rayona gedəcəm, birgə gedərik. Qardaşım isə deyib ki, işləri ilə əlaqədar rayona gözləyə bilməyəcək. Əlavə edib ki, Elməddində (qəssabda - müəl.) pulum var, gələndə o pulu da alarsan.

Nə qədər pul olub, onu bilmirəm. Qəssabın dediyinə görə, həmin vaxt qardaşıma zəng gəlib, o, çölə çıxıb. Sonra içəri keçərək, "mən gedirəm" deyib. Ondan sonra qardaşımdan xəbər yoxdur".

Qeyd edək ki, məsələ ilə bağlı keçmiş polis rəisi, "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyevlə söhbətləşərək, hadisənin mahiyyətini araşdırmağa çalışdıq:



## Şəmsəddin Əliyev: "Əgər qohumlardan onu kiminsə görməsi ehtimalları varsa, iş təzələnə bilər"




"Bu şəxs 2016-cı ildən itkin düşüb. Əgər yaxınları, doğmaları xəbərsiz itkin düşməsi ilə bağlı şəkilli və yazılı şəkildə ərazi üzrə polis orqanlarına məlumat veriblərsə, təbii ki, həmin polis şöbəsində itkin düşmə ilə bağlı müvafiq iş açılır. Müəyyən müddətdən sonra onun axtarışı ilə bağlı işlər həyata keçirilir. Amma müəyyən müddət ərzində tapılmazsa, şəxsiyyəti ilə, harda olması ilə bağlı bir məlumat daxil olmazsa, bu halda onun itkin düşmüş hesab edilməsi və yaxud da onun ölmüş elan olunması ilə bağlı məhkəməyə edilən müraciətlərə baxa bilər. Əgər məhkəmənin vətəndaşın itkin düşməsi və yaxud ölmüş elan olunması ilə bağlı qərarı varsa, o, ölmüş və yaxud itkin düşmüş hesab olunur.

Keçmiş zamanlarda, yəni sovet dönəmində itkin düşmüş şəxs 6 ay müddətində doğmalarına hər hansı bir məlumat ötürə bilməzsə və onunla bağlı hər hansı məlumat yoxdursa, bu halda o, qətlə yetirilmiş kimi dəyərləndirilərdi. Onun haqqında qəsdən adam öldürmə kimi cinayət işi açılardı. Müəyyən istintaq aparılırdı. İstintaqın nəticəsi olmazsa, müəyyən müddətdən sonra işin istintaqı dayandırılar və hansı bir hərəkət edilməzdi. Amma yalnız və yalnız yeni açılmış hallara görə cinayət işi təzələnə bilərdi".

Ş.Əliyev vurğulayır ki, Əgər həmin itkin düşmüş şəxsin yaxın adamları istintaqı aparan orqana - polis və ya prokurorluq orqanlarına məlumat verərlərsə ki, bu insanı filan yerdə görüblər - avtobusda, nəqliyyat vasitələrində və s. o halda həmin şəxslərin müraciəti əsasında işin istintaqı təzələnə bilər:

"2016-cı ildə bu günə işin üzərindən 8 il keçib. Böyük ehtimalla, belə qənaətə gəlmək olar ki, vətəndaş qətlə yetirilib. Qəsdən, yoxsa ehtiyatsızlıqdan, bunu ehtimal etmək çətindir. Burada çox fərziyələr işlətmək mümkündür. Amma bütün hallarda versiya söyləmək istəmirəm. Şübhəsiz, yəqin ki, ərazi üzrə cinayət istintaqı gedib. Fakt olaraq hazırda dayandırılıb. Biz istintaqın gedişinə müəyyən mənada manea ola bilərik. Yəni o faktlar - ehtimallar ki var, onları məcrasından yayındıra bilərik. Düşünürəm ki, əgər doğurdan da qohumlardan onu kiminsə görməsi ehtimalları varsa, bununla bağlı müvafiq orqanlara şikayət etsələr, iş təzələnə bilər. Amma mənim ehtimalım belədir ki, əgər xəstəliyi, anlaqlı vəziyyətdə olmasına dair hər hansı şübhələr yoxdursa, deməli, bu adamı qətlə yetiriblər. Amma bütün hallarda bununla bağlı hər hansı məlumat varsa, işin istintaqı yenilənə bilər".

**Aynurə İSMAYIL**

**Redaksiyadan: Aidiyyəti qurumların mövqeyini dərc etməyə hazırıq.**

Ötən yazımızda da qeyd etdiyimiz kimi, ölkəmizdə narkomaniyanın sürətlə genişlənməsi mövzusuna toxunan müsahiblər bunun ilk növbədə ölkə əhalisinə qarşı genosid olduğunu bildirirlər. Mütəxəssis rəyləri də narkomaniyanın xalqımızın qəsdinə durmuş "silah" olduğuna diqqət çəkirlər. Təsadüfi deyil ki, narkotik istifadə edən gənclər öz sağlamlıqlarını itirməklə yanaşı, gələcəkdən onların bir çoxunun nəsilartırma qabiliyyəti olmur.



## "Get-gedə cinsi zəifliklə bağlı müraciət edənlərin sayı çoxalır"

# Narkotikin dəhşətli fəsadları

### Androloq Azər Mirzəyev: "Azərbaycanda yeni ailə quran hər 10 nəfərdən 5-də cinsi zəiflik halları müşahidə olunu.r"

Əslində, bu nüansı dəqiqləşdirmək üçün istifadəyə son qoymuş keçmiş narkotik aludəçilərinin statsitikasını araşdırmaq yerinə düşər. Hərçənd, narkotikin uzunmüddətli tərgidilməsindən sonra sağlamlığın bərpa olunduğu da iddia edilir, amma əksər mütəxəssislər bu fikirdədir ki, narkomanın sağlamlığı tam bərp olunmur.

Statistik göstəricilərə əsasən deyə bilərik ki, Azərbaycanda uşaqların sayı ilbəil azalır. Bu o deməkdir ki, əhalimizin artım tempi dayanıb, insan resursumuz azalmağa doğru üz tutub. Bu gedişlə biz də sayı tükənən xalqlar qrupuna aid ola bilərik. Şübhəsiz, burada da narkomanların sayının artması heç də az rol oynamır.

Ümumiyyətlə, narkotiklərin faktiki olaraq nəslin kəsilməsinə təsiri demoqrafik faciədir. Məlumat üçün bildirək ki, 2024-cü ilin yanvar-iyun ayları ərzində 48 702 yeni doğulan körpə qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10,7-dən 9,6-ya düşüb. Bölgələrdə isə ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10,2-dən 8,3-ə düşüb.

**Uşaqlarının sayının getdikcə azalmasının səbəbləri ilə bağlı uzun illərdir ki, müzakirələr var. Ekspertlər məsələnin iki səbəbini qeyd edirlər:**

***1.** Sosial-iqtisadi səbəblər.*

***2.** Mənəvi psixoloji səbəblər.*

Sosial-iqtisadi səbəblər kimi çətin iqtisadi durum, əhalinin yoxsulluğu, işsizliyin yüksək səviyyədə olması, gəlirlərin çox aşağı olması, evsizliyin getdikcə artması və s. göstərilir. Mənəvi-psixoloji səbəbin içində isə birbaşa narkotik istifadəsinin payı çoxdur. Sözsüz ki, cəmiyyətdə mənəvi dəyərlər sisteminin çökdürülməsi, onun yerini bayağı yaşam tərzinin alması narkomaniya üçün münbit şərait yaradır.

Bəs bu demoqrafik faciə nəyin sayəsində baş verir? Narkotikin istifadəçilərə vurduğu sağalmaz yara dolayısı ilə də əhali sayının azalmasında necə iz qoyur?

Bu haqda dəfələrlə qeyd etmişik ki, narkotik maddələr istifadəçilərdə, xüsusilə də gənc oğlanlarda impotensiya yaradır. Xatırlayırsınızsa, illər öncə apteklərdə gənclərə narkotik həblərinin satılması haqda xəbərlər gündəmə gəlmişdi və bu səs-küy yaratmışdı. Əslində, narkomaniyanın yayılması barədə SOS siqnalını onda çalmaq lazım idi. Həmçinin, gənclərin arasında impotensiya yaşının cavanlaşması və bunun 25-30 yaşında baş verməyə meyllənməsi haqda məlumatlar da yox deyil. Məsələn, bəzi gənclərin yüngül narkotik (çətənə) istifadə etdiyi və istifadənin onda impotensiya yaratdığı haqda məlumatlara rast gəlinir. Amma hesab edirik ki, impotensiya daha çox süni narkotiklərin, xüsusilə də "patı"nın yaratdığı haldır.

> Sual oluna bilər ki, impotensiyaya məruz qalan cavan şəxslərin buna narkotik istifadəsi sayəsində düçar olub-olmamasını haradan öyrənə bilərik, əgər o, öz bunu özü gizlədirsə? Ümumiyyətlə, hansısa narkotik istifadəsi nəsilartırma qabiliyyətinə təsirsiz ötüşürmü? Narkotikin sayəsində kəsilən nəslimizi, xalqımızı hansı aqibət gözləyir? Həmçinin, narkotik istifadəsindən qurtulmuş şəxsin bu qabiliyyətinin tam bərpa olunması, bununla yanaşı sağlam, normal uşaq sahibi olması ehtimalı nə qədərdir?

Sual oluna bilər ki, impotensiyaya məruz qalan cavan şəxslərin buna narkotik istifadəsi sayəsində düçar olub-olmamasını haradan öyrənə bilərik, əgər o, öz bunu özü gizlədirsə? Ümumiyyətlə, hansısa narkotik istifadəsi nəsilartırma qabiliyyətinə təsirsiz ötüşürmü? Narkotikin sayəsində kəsilən nəslimizi, xalqımızı hansı aqibət gözləyir? Həmçinin, narkotik istifadəsindən qurtulmuş şəxsin bu qabiliyyətinin tam bərpa olunması, bununla yanaşı sağlam, normal uşaq sahibi olması ehtimalı nə qədərdir? Keçmiş narkotik istifadəçisindən törənən nəslin genetik olaraq "narkotikə isti münasibət", yaxud "narkotikə doğmalıq, yaxınlıq" sindromu daşıma ehtimalı nə qədərdir?

Bu və digər suallara androloq Azər Mirzəyevlə söhbətimizdə cavab tapmağa çalışdıq. O, bildirir ki, narkotiklər tək cinsi sferaya deyil, orqanizmin funksiyalarına da təsir edir, orqanları yavaş-yavaş sıradan çıxarır: "Sizin sualınızı cavablandıraraq onu demək istəyirəm ki, istər güclü, istər də zəif təsir edən narkotiklər olsun, onlar cinsi sferaya mənfi təsir göstərir, insanı laxladır, potensialını aşağı salır. Ümumiyyətlə isə, narkotiklər tək cinsi sferaya deyil, orqanizmin funksiyalarına da təsir edir, orqanları yavaş-yavaş sıradan çıxarır.

Konkret potensiya üzərində dayansaq, get-gedə narkoitk üzündən cinsiyyət sistemində hissiyatın, testesteronun azalması, spermotogenez prosesinin pozulması baş verir ki, bu da gələcəkdə istifadəçilərin ata, eləcə də ana olmaq şansını aşağı salır. Bu nöqteyi-nəzərdən istər kişi olsun, istər də qadın, əgər şəxs narkotik istifadəçisidirsə, onun mütləq gələcəkdə problemi olacaq. İlk növbədə kişilərdə cinsi sferada cinsi zəiflik, cinsi funksiyanın get-gedə sönməsi və sperma faizinin aşağı düşməsi halı yaşanacaq. Qadınlarda isə, bu dediklərimlə yanaşı, yumurtalıqların funksiyasının pozulması baş verir ki, bu da onların ana olmaq şansını aşağı salır.

Digər tərəfdən, əgər bu pasientlər müalicəyə cəlb olunurlarsa və narkoloji dispanserlərdə normal, düzgün müalicə alırlarsa, onların potensiyası sonradan, müəyyən illərdən sonra bərpa oluna bilər. Bu onların narkotikə aludə prosesinin nə qədər olmasından asılıdır. Pis vərdişdən uzaqlaşsalar, onların cinsi sferadan olan problemi zamanla həll oluna bilər, əgər onlar bunu özləri istəsələr. Təbii ki, burada uzunmüddətli müalicə kursları, həm androloq, həm psixoloq, psixoterapevtin müalicələrinin köməyilə problem öz həllini tapa bilər".

O ki qaldı bu kimi şəxslərin gələcəkdə valideyin olmaq şansına, Azər Mirzəyev deyir ki, ümumiyyətlə, valideyin olmaq şansı həmişə var: "Yetər ki, orqanizm bu pis vərdişdən azad olsun və tam şəkildə bütün orqan və sistemlər narkotikin mənfi tərkibindən təmizlənsin, bundan sonra zamanla bu kimi şəxslərin övlad sahibi olmaq şansı da arta bilər. Onlar bu yöndə müalicəyə başlasalar və dayanmadan üzərlərində işləsələr, düzgün, sağlam həyat tərzi keçirsələr, onların valideyin olmaq şansı çoxdur. Düzdür, bəzi hallarda bu mümkün olmur, çünki həmin şəxslər ola bilsin ki, uzun illər narkotik aludəçisi olublar, onlarada narkotikin təsirindən orqanların sistemləri tamamilə sıradan çıxıb, xayalar öz funksiyasını tamamilə itirib və s. bu kimi hallarda məsələnin həlli tamamilə çətin olur, bəzən də heç olmur. Bu, təxminən 25-30 faiz hallarda baş verir. Amma dediyim kimi, həmin pasient tez müayinə və müalicəyə cəlb olunubsa, gələcəkdə düzgün müalicə olunduğu təqdirdə, onun valideyn olmaq şansı çoxdur. Bunun nəzərdən qaçırmaq olmaz".

A.Mirzəyev onu da vurğuladı ki, ölkəmizdə əvvəlki illərlə müqayisədə impotensiyanın, yənin cinsi zəifliyin artması müşahidə olunur: "Yeni biz əgər 15-20 il əvvələ baxsaq, görərik ki, statistikada artım var. Get-gedə cinsi zəifliklə bağlı müraciət edənlərin sayı çoxalır. Statistikaya nəzərə salsaq görərik ki, yeni ailə quranların hər 10-dan 5-də cinsi zəiflik halları müşahidə olunur. Bu da böyük rəqəmdir. Bu istiqamətdə pasientlər düzgün müalicə almaqdıqda, problem həmin ailədə narazılığa və anlaşılmazlığa gətirəb çıxara bilər.

Digər tərəfdən isə, impotensiya həmin ailədə övlad sahibi olmaq şansını aşağı salır. Ona görə də, bu çox böyük bir sosioloji problemdir, bunun qarşısını almaq lazımdır. Çalışmaq lazımdır ki, evlənməmişdən öncə gənclər müəyyən konsultasiyadan keçsinlər. Həkim-uroloq, həkim-androloq, həkim-psixiloqoun konsultasiyasını almalıdırlar ki, gələcəkdə potensiya ilə bağlı problemlər olmasın, əgər belə problem varsa, o, vaxtında aşkar olunsun. Bu üç həkimdən biri problemin həllində köməyini göstərə bilər. Ona görə, bu üç həkimin konsultasiyası vacibdir".

**Hazırladı: İ.SABİRQIZI**




# Lerikdə yeli məmurlar istədiyi "havanı çalır"...

**İndi Lerikin dağ kəndlərində acınacaqlı bir durum yaşanır. Lap açığını desək, yerli məmurlar onlara verilən səlahiyyətlərdən istifadə edərək, istədiyi vaxt dövlətin qanunlarını poza bilirlər. Nəticədə Tanrının bəxş etdiyi ömür payını yaşamaqdan ötrü zalımın zülmündən asılı vəziyyətə düşən kəndli cəhənnəm əzabına dözmək məcburiyyətində qalır.**

Qısa şəkildə desək, atıq bu dağ rayonunda özünə güvənib kəndlini adam yerinə qoyan məmur yoxdur. Nəticədə gözdən uzaq kəndlərdə qalaq-qalaq yığılıb qalmış sosial problemlər viranəlikdən başqa bir şey deyildir. Rayonda vəzifə tutanlar daha çox var-dövlət toplamaq üçün yalan uydurub xalqda ölkə başçısına olan inamı öldürməyi yaxşı bacarırlar.

Əlbəttə, Azərbaycanın Prezidenti İlham Əliyev çox sədaqətli, etibarlı, qüdrətli, öz idarəçilik bacarığı ilə bütün dünyanı heyrətə salan dahi bir rəhbərdir. O, yorulmadan çalışır ki, onun ölkəsi daim tərəqqi etsin, xalqı həmişə xoşbəxt yaşasın. Və istəyinə apardığı ağıllı, dərin düşüncəyə söykənən siyasəti ilə nail ola bilir.

Lerikin unudulan kəndlərində günbəgün vəziyyət pisləşir. Bu da elə rəhbər işçilərin əsas istəyidir. Tutduğu kreslolarda rahat oturur, ölkə başçısının rayonun sosial inkişafı üçün ayırdığı vəsaiti qoxu bilmədən mənimsəyirlər. Dövlət işçisi kimi, amma əhalidən ötrü heç bir fəaliyyət göstərmədən aldıqları yüksək "əmək haqqı" da öz yerində. Fəqət, xalqa xidmət etmək məqsədilə vəzifəyə gələnlər bir dəfə belə olsun kəndlini narahat edən problemlərlə maraqlanmır. Odur ki, rayonda kənd həyatı bərbad haldadır. Bir də kimin ki, adamı vəzifədədir, o, hökmranlıq edir. Əhalinin çoxu baş götürüb gedir, kəndlər sürətlə boşalır. Bunlara son qoymaq üçün əli hər yerdən üzülən kəndli hazirkı zamanda işıq gələn tərəfi yalnız öz Prezidentində görür.

Rayonun əksər kəndlərində təbii qaz yoxdur. Son vaxtlar bəzi işbazlar yanacaq odunu da qaldırıblar qızıl qiymətinə. Kəndli evini isitməkdən ötrü cəhənnəm əzabını çəkir. Bu yandan isə ölkəmiz dünyanın çox yerinə qaz ixrac edir. Sovetdən qalma elektrik dirəkləri çürüyüb. Məftillərdən sallananı da vardır. Nəticədə tez-tez işıqlar sönür. Bir balaca yağış olanda palçığın əlindən kəndlərin içinə girmək olmur. İllərdir rayonda ictimai nəqliyyat fəaliyyət göstərmir. Əhali mərkəzə, eləcə digər bir yerə getməkdə çətinliyə düşür. Köhnə dövrün mağazaları dağılandan sona camaat gündəlik ərzaqlarını üç qat bahasına əldə edir. Ölkədə bankomat yaranan yaşlı adamlar pensiya pullarını aylarla ala bilmirlər. Ümumiyyətlə, sosial problemlərin ucbatından Lerikin çox kəndində yaşamaq qeyri-mümkündür....

***Zəfər ORUCOĞLU,***
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Mübariz Əkbərova qarşı şok ittihamlar

## Apellyasiya Məhkəməsinin sədri şəhid ailəsinin 3 üzvünü həbs etdirib?

**Bakı şəhəri, Xəzər rayonu, Qədəmgah küçəsi 36 ünvanında yaşayan, şəhid ailəsinin üzvü Dadaşova Qızqayıt Mahmudağa qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub.**




Saytımız vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, eləcə də Məhkəmə Hüquq Şurasının üzvü - Ədliyyə nazirinin müavini Abiddin Hüseynova, MHŞ-nin üzvü - Konstitusiya Məhkə-



məsinin hakimi Kamran Şəfiyevə, MHŞ-nın üzvü - Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri İsmayıl Xəlilova, MHŞ-nın üzvü - Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə, MHŞ-nın üzvü - Naxçıvan Ali Məhkəməsinin sədri Səadət Bektaşiyə, MHŞ-nın üzvü - Ali Məhkəmənin Mülki Kollegiyasının sədri Sənan Hacıyevə, MHŞ-nın üzvü - Ali Məhkəmə sədrinin müavini Çingiz Əsgərova, MHŞ-nın və Ali Məhkəmənin sədri İnam Kərimova və MHŞ-nın üzvü - Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərova müraciət edən şikayətçi xahiş edir ki, Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovun qanunsuz hərəkətləri (hərəkətsizliyi) ilə bağlı MHŞ qarşısında məsələ qaldırsınlar və qanunvericiliyin tələblərinə müvafiq tədbir görsünlər. Şikayətçinin müraciətini olduğu kimi dərc edirik:

**"Hörmətli Prezident!**
**Hörmətli Mehriban xanım!**
**Hörmətli MHŞ sədri və üzvləri!**

Mən şəhid ailəsinin üzvüyəm. Dövlətimdən, Prezidentimdən çox razıyam. Bildirirəm ki, 17.09.2024-cü il tarixdə Bakı Apellyasiya Məhkəməsində qəbulda olmuşam. Qəbuldan narazı qaldığım üçün Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovun məni şəxsən qəbul etməsini məhkəmənin məsul işçisindən xahiş etmişəm.

Məhkəmə əməkdaşları məni getgələ saldıqdan sonra, 18.09.2024-cü il tarixdə, təxminən saat 14:30 radələrində Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov məni şəxsən qəbul etmişdir.

**Hörmətli Prezident!**
**Hörmətli Mehriban xanım!**
Hörmətli MHŞ sədri və üzvləri!

İstər Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovun qəbulunda, istər də məhkəmənin inzibati binasının qarşısında olarkən işlətdiyim, "İlham Əliyev mənim Prezidentimdir, heç vaxt, korrupsioner və rüşvətxor məmurların Prezidenti ola bilməz", "mən ŞƏHİD verməmişəm ki, siz oturub pul yığasınız, məni elə və get-gələ salasınız? " və.s. söylədiyim ifadələrimin üstündə dururam, bu gün və sabah da duracağam. Çünki bu sözləri mənə Bakı Apellyasiya Məhkəməsinin hakimlərinin xeyrinə qərar çıxardıqları Əliyev İsa Cəfər oğlu söyləmişdir. O, deyir ki, "Bakı Apellyasiya Məhkəməsinin hakimlərinə və sədrinə bir meşok pul vermişəm, dərdini kimə deyirsən de, kefin hara istəyir şikayət et..."

**Hörmətli Prezident!**
**Hörmətli Mehriban xanım!**
**Hörmətli MHŞ sədri və üzvləri!**

Mən dərdimi Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərova deməyə getmişdim. Mən demirəm ki, İsa Əliyev düz deyir və yaxud da yalan danışır. Ancaq çox-çox təəssüflər olsun ki, Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov, qəbulundan çıxan günün səhərisi - 19.09.2024-cü ildə məni və qaynım Dadaşov Rasim Hacıbaba oğlunu həbs etdirməklə, bir daha subut etdi ki, İsa Əliyevin söylədikləri həqiqətmiş. Demək, "həqiqət acı olur" deyimi də təsdiqini tapdı.

Məni və qaynımı həbs etdirməklə ürəyi soyumayan məhkəmə sədri 27.09.2024-cü il tarixdə "ŞƏHİDLƏRİN ANIM GÜNÜNDƏ" həyat yoldaşımı da 10 sutka həbs etdirdi. Mübariz Əkbərov şəhid ailəsinin 3 (üç) üzvünü həbs etdirməklə bir daha təsdiq etdi ki, İsa Cəfər oğlu Əliyev həqiqətən də Bakı Apellyasiya Məhkəməsinin hakimlərinə və sədrinə pul verib, öz xeyrinə qərar çıxartdırmışdır.

**Hörmətli Prezident!**
**Hörmətli Mehriban xanım!**
**Hörmətli MHŞ sədri və üzvləri!**

Bəlkə də Azərbaycan dövlətinin tarixində ilk dəfədir ki, Yasamal Rayon Məhkəməsinin sədri Bakı Apellyasiya Məhkəməsi sədrinin sifarişi ilə ŞƏHİD ailəsinin 3 (üç) üzvünü həbs etmişdir.

Bəlkə də ilk dəfədir ki, Yasamal Rayon Məhkəməsinin sədri Mübariz Əkbərovun sifarişi ilə ŞƏHİD anasını "xırda xülüqanlıqda" ittiham etmiş və 50 manat cərimə edib, məhkəmə zalından azadlığa buraxmışdır.

**Hörmətli Prezident!**
**Hörmətli Mehriban xanım!**
**Hörmətli MHŞ sədri və üzvləri!**

Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovdan soruşun görək, mən Bakı Apellyasiya Məhkəməsinin inzibati binasının qarşısında olarkən - saat 12:30 radələrində "xırda xülüqanlıq" və s. etmişdimsə, onda nəyə görə saat 14:30 radələrində məni şəxsən qəbul etmişdir!?

Qabaqcadan bildirirəm ki, Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovun bu kimi qanunsuz hərəkətlərə (hərəkətsizliyə ) əl atmaqda məqsədi İsa Əliyevdən aldığı pulları geriyə qaytarmamaq üçün bizi qoxutmaq, haqqımızı tələb etməkdən çəkindirmək və 08.10.2024-cü il tarixdə Bakı Apellyasiya Məhkəməsində baxılacaq işi yenidən İsa Əliyevin xeyrinə qərar çıxarmaqla həll etməkdir.

**Hörmətli Prezident!**
**Hörmətli Mehriban xanım!**
**Hörmətli MHŞ sədri və üzvləri!**

Yuxarıda qeyd olunan faktları nəzərə alıb Sizlərdən xahiş edirəm ki, vəzifəsindən, dövlətin ona verdiyi statusdan - imtiyazlardan sui-istifadə edən Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovun qanunsuz hərəkətlərinin (hərəkətsizliyi) qarşısının alınması istiqamətində qanunvericiliyin tələblərinə müvafiq tədbir görülməsi üçün aidiyyəti üzrə MHŞ qarşısında məsələ qaldırılmasına göstəriş verəsiniz və ədalət zəfər çalana kimi bu işi diqqətinizdə saxlayasınız".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# “Bəstəkar ilk növbədə öz xalqına xidmət etməlidir”



## Aydın K.Azim: “Qarayev 20-ci əsrdən bu günə yetişmiş bəstəkarlarımızın ən intellektualıdır”

**Bu günlərdə böyük bəstəkarımız Qara Qarayevin Ev Muzeyində ünlü bəstəkar, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Bəstəkarlıq kafedrasının müdiri, Əməkdar incəsənət xadimi Aydın K.Azimlə görüş baş tutdu. Salona Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində yaradılmış “Klassik musiqi həvəskarları klubu”nun üzvləri yığışmış, musiqiçilər təşrif buyurmuşdu.**

Tədbiri Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət xadimi Alla Bayramova açıq elan etdi və söz muzeyin şöbə müdiri Xanım Abdinovaya verildi. O, Aydın K.Azimin həyat və fəaliyyət yolu haqqında mühüm məlumat verdi. Daha sonra bəstəkar kürsüyə dəvət olundu. Alla xanımın və dinləyicilərin ünvanladığı suallarla bəstəkar ilk təhsil illərindən, Asəf Zeynallı adına Musiqi Texnikumunda (bugün Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci) həm pianoçu, həm də musiqişünas kimi dərs aldığı müəllimlərindən bəhs etdi: Y.S.Kasyanenko, R.S.Levina, S.F.Şeyn, İ.V.Abezqauz və digərləri. Aydın müəllim həmin illərdə Müdhət Əhmədovdan və Xəyyam Mirzəzadədən bəstəkarlıq dərsləri almışdır. “Nə yazıq ki, Müdhət Əhmədovun adı günümüzdə çox az çəkilir. Amma o, böyük şəxsiyyət, görkəmli musiqiçi idi. Çox az insan bilir ki, o, dövrünün ən önəmli mədəni ocaqlarından biri olan S.Kirov adına Leninqrad Opera və Balet teatrının (günümüzdə Mariinski Teatr) konsertmeysteri olmuşdur,” - Aydın müəllim qeyd etdi.



Söz Aydın K.Azimin deyimi ilə desək, onun “əziz müəllimi” Qara Qarayevə gəldi: “Bəstəkar olmağa mən uşaqlıqdan qərar vermişdim, ən böyük arzum isə Qara Qarayevin sinfində təhsil almaqdı.” O, Qara müəllimlə ilk görüşündən, onun pedaqogikasından, şəxsiyyətindən söz açdı: “Yer üzündə çox az bəstəkar vardır ki, onlar həm də böyük müəllim olsun. Məsələn, Y.Haydn, N.Rimski-Korsakov, D.Şostakoviç. Onlardan biri də Qara Qarayevdir. ... Qarayev 20-ci əsrdən bu günə yetişmiş bəstəkarlarımızın ən intellektualıdır.”

Aydın müəllim özünün fəaliyyət sürəcindən, “Ağ tut”, “Bayrağım”, “İlmələr” kimi əsərlərinin yazılması tarixindən, həmçinin Respublikamızın Dövlət Himninin bərpası dövründən bəhs etdi. Bir ziyalı olaraq mədəniyyət, təhsil, musiqi və maarifçilik ilə bağlı mühüm mesajlar da verdi. Bu mövzular əsnasında Hacı Zeynalabdin Tağıyev, Mirzə Hüseyn Əfəndi Qayıbzadə, Üzeyir Hacıbəyli kimi şəxsiyyətlərin xidmətlərindən nümunə gətirdi, onlar haqqında az məlum olan maraqlı faktları açıqladı. Xüsusən M.H.Qayıbzadənin vaxtilə Z.Tağıyevə Quran-i Kərim'i Azərbaycan türkcəsinə tərcümə etmək, Qızlar Məktəbi açmaq və Teatr inşa etmək ideyalarını verməsi faktı təsirli idi. Nəzərə alsaq ki, Qara Qarayevin anası Sona xanım Axundova sözügedən məktəbin ilk məzunlarından idi və Quran-i Kərim'in Z.Tağıyevin imzası olan tərcüməsinin bir nüsxəsi Sona xanıma məzun olarkən hədiyyə olunmuşdur. Bilirik ki, Qara Qarayev Quran-i Kərim kolleksioneri idi və həmin tarixi tərcümə onun kolleksiyasında önəmli yer tutur.

Aydın müəllim bəstəkarlıqla bağlı da maraqlı mesajlar verdi, “Bəstəkar ilk növbədə öz xalqına xidmət etməlidir” dedi.

Tədbir zamanı Aydın K.Azimin bir neçə əsəri - “Bayrağım”, “Ağ tut”, “Aylı gecə sərin olar” - audioformatda səsləndi, piano üçün yazdığı “Axar su” əsəri Leyla Həmid Əhməd Xan tərəfindən ifa olundu. Dinləyicilərin xahişi üzərinə Aydın müəllim piano arxasına keçdi və “İlmələr”dən bir parçanı səsləndirdi.



Düz üç saat davam edən görüş bir göz qırpımında keçdi. Bu, Aydın müəllimin həm də maraqlı həmsöhbət olduğunun göstəricisi idi. Tədbir iştirakçıları məmnunluqlarını ifadə etdilər və sonda xatirə fotosu çəkildi.

Yeni görüşlərədək!

**Leyla Həmid Əhməd Xan**

# Musiqi məktəbinin müəllimlərindən Prezidentə müraciət

**Ağcabədi rayonu, Boyat kənd Uşaq Musiqi Məktəbinin müəllimləri - Qarayev Şamil İlham oğlu və Qarayev Ramil İlham oğlu - tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçilər saytımız vasitəsilə Prezident İlham Əliyevə, Milli Məclisin sədri Sahibə Qafarovaya, Baş nazir Əli Əsədova, Baş prokuror Kamran Əliyevə və digər aidiyyəti qurumların rəhbərlərinə müraciət ünvanlayıblar. Onların müraciətini olduğu kimi dərc edirik:**

“Yazıb bildirmək istəyirik ki, müəllim işlədiyimiz Boyat kənd Uşaq Musiqi Məktəbinin direktor əvəzi Əhmədova Şahnaz Seymur qızı, Qarabağ Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov və baş mühasib Adilov Zaur Adil oğlu ciddi qanun pozuntuları həyata keçirirlər. Onlar bizim haqlarımızı pozmaqla məşğuldurlar.

Şikayətlərimizdən və etirazlarımızdan qəzəblənən Qalib Həsənov və onun tabeçiliyində olan Boyat kənd Uşaq Musiqi Məktəbinin direktor əvəzi Şahnaz Əhmədova bizi açıq şəkildə təhqir etməkdən və hədələməkdən çəkinmir. Halbuki, onlar çoxsaylı qanun pozuntularına yol veriblər. Həmin faktlardan bəzilərini nəzərinizə çatdırırıq:




1.2021-ci ildən bizim işlədiyimiz Boyat kənd Uşaq Musiqi Məktəbində payızqış mövsümü üçün ayrılmış yanacaq materialları məktəblərə verilməmiş və sinif otaqlarının qızdırılması demək olar ki, çox yaritmaz vəziyyətə salınmışdır.

2. Son 5 il ərzində bizim işlədiyimiz məktəblərdə sinif otaqları üçün texniki avadanlıqların (masa və oturacaqların, dərs və dəftərxana ləvazimatlarının verilməsi) və musiqi təminatı yerinə yetirilməmişdir.

3. Dərslərin tarifləşmə üzrə bölgüsü düzgün həyata keçirilmir.

4. Son 5 il ərzində bizim işlədiyimiz məktəblərin əsaslı təmiri həyata keçirilməmiş və büdcədən ayrılan vəsaitin təyinatı üzrə istifadəsi icra edilməmişdir.

Cənab Prezident!

İnanırıq ki, Qarabağ Regional Mədəniyyət İdarəsinin və işlədiyimiz Ağcabədi rayon Boyat kənd Uşaq Musiqi Məktəbinin fəaliyyətinin yoxlanılması üçün qətiyyətli və sərt göstərişlər verəcəksiniz”.

Müəllimlərin şikayəti ilə bağlı Mədəniyyət Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Məsələnin araşdırılacağə bildirildi.

**Aynurə İSMAYIL**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

*Esse*

# Qoca və ulduzlar



Allahverdi Eminov

**Payızağzı havalar sozalır, günəşin hərarəti çöl-bayırın otlarına, kollarına, ağacların yarpaqlarına ilişib qalır, axşamın havasına köklənir. Tarladan, dirrikdən yorğun qayıdan adamlar evə tələsir, onları qarşılayacaq balalarını qucaqlamağa tələsir. Məktəbdən evə tələsən uşaqlar naxır yoluna çıxır, mal-qarasını seçib ayırır. Dəcəllər camışın belinə hoppanır, evə tərəf haraylayır. Beləcə axşam qaranlığı Yerə enir, bacalardan çıxan tüstülərə qarışır. Həyətdə, eyvanda oturan qocalar demisini tüstülədir, qoxulu papirosuna son qüllabı vurur, canı hələ çıxmamış kötüyünü havaya tulazlayır, həsrətlə yanmış kötüyə baxır, bir azdan külə dönəcəyini gözləyir. Qoca ötən illərə qayıdır, haraylı ömrünü xəyalında yenidən yaşadır. Saatlar isə əriyir, gecənin yolunu gözləyir.**

Budur, kəndə qaranlıq enir, gündüz gümüşü rəngə çalan səma Ayın yolunu gözləyir. Ay tək doğmayacaq, balalarını - ulduzları ilə gələcək, Ayın dövrəsində öz yerlərini alacaqlar, bir-birinin işığında bir-birinə göz vuracaqlar.

Arabir qaranlığa dözümsüz bəzi ulduzlar sönüb yox olacaqlar - Gözəl qadının boyunbağından qırılan mirvari dənələri kimi. Ay üzündəki ləkəni silmək üçün harayasa tələsir, buludlar isə Aydan qopub süzüləcəklər, dənizə qovuşacaqlar. Qoca hələ yerində oturub gecənin zülmətini gözlərinə doldurur və Ayı axtarır, Ay, ulduzları yetim qoyub harayasa tələsir. Göyün zəfər tacı olan ulduzlar, sanki yetim bacıdılar. - Bəs anaları haradadır? - Qoca düşünür, bəlkə də anasını xatırlayır? Anası bu eyvanda ona hey laylay çalar, bayatılar söylərdi. Anasının yanğılı səsi qulaqlarında bu gün də çırpınır, səslənir. Qoca cibindən bozarmış tütün kisəsini çıxarır, üç barmaq ətirli tütünü kağıza büküb eşmə düzəldir. Sol cibindən kibrit qutusunu ovcuna alıb yandırır, ağ-tünd tüstünü içinə çəkir və havaya üfürür. Qaranlıq tüstünü dərhal udur. Qoca ayağa qalxır, üzünü Aylı gecəyə çevirir, Ayı axtarır. O, hələ yol gedir, ulduzlar isə onun dalınca sürünür, bir-birinin işığından tutur, gecənin zülmətində aza bilərlər.

Qoca papirosunu ulduzların yoluna sarı tutur, işığında yollarına davam eləsinlər. Bu ulduzlar anasız yetim bacılar deyilmi? Qoca cavanlığında yaddaşına köçürdüyü misraları pıçıldadı:

***Ulduzlar göylərdə pərən-pərəndir,***
***Ulduzlar göylərin zəfər tacıdır.***
***Deyirəm göydəki ulduzlar ki, var -***
***Atasız - anasız yetim bacıdır...***

*Etüd*

# Payız havası

Allahverdi Eminov

**Payızı çox sevsəm də üşüyürəm, sümüyüm qızmır, meşə qırağına çıxıram, ağacların yaşıl yarpaqları xəzəlləşib torpaqda məskunlaşıblar, qaratoyuqların əyləncəsinə çevriliblər. Çürümüş meyvələri boz sərçələr, kəkilli şanapipiklər, qaradolaşalar dimdikləyir, boğazdan aşağı ötürürlər. Bülbüllər, sarıköynəklər, sağsağanlar budaqların dəyişirlər, bir-birindən küsmüş kimi qəmli nəğmələrini oxuyurlar. Bal arıları çiçəkdən-çiçəyə qonur, şirəsini sorub pətəklərinə daşıyırlar. Dovşanlar balaları ilə seyrə çıxırlar. Ayılar tənbəltənbəl mağaralarına yollanırlar.**

Mən dənizə tələsirəm, axşamdan sahilə baş qoyub yuxuya qalan ləpələrə baxır, nəzərlərimi uzaqlaşan gəmilərdən ayırmıram. Payız havası səmada ünvansız dolaşan buludları titrədir. Buludlar göz yaşlarını dənizə əndərirlər, balıqları aldadırlar.

Budur, uzaqdan qayıq görünür, uzunboylu cavan qayıqçı ona sığınan qadına nəsə pıçıldayır və əlini mənə tərəf uzadır, qayıqçı qayığın istiqamətini qonur rəngli qayalığa döndərir. Və gözümdən uzaqlaşır. Üç balıqçı qamış qarmaqlarını çiyinlərinə asıb yanımdan ötürlər. Əllərini qaldırıb salamlaşırlar. Başım üstə cütləşən qağayıları özlərilə aparırlar. Tənhalaşdım və qəribsədim.



# Pişəvərinin vəfatı

**Bakıya gəldiyimiz gündən yaşlı fədailər Vətənə, cəbhəyə qayıtmaq istəyirdilər. Hər gün Tehran, Təbriz radiolarına qulaq asıb sonra gəlib təşkilatın həyətində oturub eşitdikləri xəbərləri müzakirə edirdilər. Onları ruhlandıran bəzi radioların fars dilində verdiyi xəbərlər idi. Xəbərlədə bildirilirdi ki, fədailər dağlarda məskən salıb orada məşqlər edirlər. Onların məqsədi Təbrizi tezliklə azad etməkdir. Bu xəbərlər cənubluların ümidini bir qədər də artırırdı.**

Həqiqət bu idi ki, 1948-ci ilin əvvəllərindən fədailərə tüfəng paylanmış, onlar hərbi dərs keçirdilər. Bu Pişəvərinin səyi nəticəsində baş tutmuşdu. Buna görə Pişəvəri tez-tez rayonlara gedir, onlara baş çəkirdi. Eşitdiyimə görə, növbəti səfərlərindən biri də Gəncəyə olur. Bu səfərdə onu Qulam Yəhya, bir də Nuru Quliyev müşayiət edirmiş. Nuru 1941-1946-cı illərdə Təbrizdə sovet səfirliyində səfirin müavini işləmişdir.

Bu səfər haqqında baş verən hadisəni belə nəql edirlər: Pişəvəri birinci günün gecəsi Gəncədə qalır. Onlar səhər tezdən Yevlaxa getməli imişlər. Səhər Pişəvərinin sürücüsü maşını işə sala bilmir. Bu zaman Qulam Yəhya təklif edir ki, onun maşını ilə getsinlər. Deyilənə görə, Qulamın şoferi erməni imiş. Onların maşını Gəncə-Yevlax yolunda arxın qırağında qoyulmuş daşa dəyir. Maşın böyük sürətlə getdiyi üçün sürücüsünün yanında oturan Pişəvəri bu ağır zərbədən çox bərk zədələnir (deyilənə görə, onun başı maşının qabaq şüşəsini sındırıb yaralanır, sinəsi əzilir, hətta qabırğaları da sınır). Arxada oturan Qulam ilə Nuru Quliyev, bir də sürücü huşlarını itirirlər. Vəziyyəti belə görən Pişəvəri maşından bir təhər düşüb, sürünə-sürünə yola çıxıb maşın saxlayır ki, onlara kömək etsinlər. Onları Yevlax xəstəxanasına gətirirlər. Hadisəni Bakıya xəbər verirlər. Bakıdan təcili həkimlər, o cümlədən Pişəvərinin həkim qardaşı vertolyot ilə Yevlaxa gedirlər. Deyirlər ki, Pişəvəri neçə saat qalandan sonra keçinir. Bu hadisədə Nurunun qıçı sınır. Qulamın başı yarılır, sürücüyə isə xəsarət dəymir.

Bu səfər haqqında baş verən hadisəni belə nəql edirlər: Pişəvəri birinci günün gecəsi Gəncədə qalır. Onlar səhər tezdən Yevlaxa getməli imişlər. Səhər Pişəvərinin sürücüsü maşını işə sala bilmir. Bu zaman Qulam Yəhya təklif edir ki, onun maşını ilə getsinlər. Deyilənə görə, Qulamın şoferi erməni imiş. Onların maşını Gəncə-Yevlax yolunda arxın qırağında qoyulmuş daşa dəyir...

Pişəvərinin cənazəsini gətirib Bakıda Buzovna kəndində ailəsinin yaşadığı bağın həyətində dəfn etdilər. Bu xəbər tezliklə bütün Azərbaycan rayonlarına yayıldı, fədailər dəstə-dəstə Buzovna kəndinə gəlib rəhbər ilə vidalaşırdılar. Pişəvərinin ölümü ilə bağlı fikirlər ilk gündən haçalanmağa başladı. Hadisənin gedişini diqqətlə araşdıranlar burada qəsd olduğunu söylədilər. İkinci dəstə bu hadisənin sadəcə təsadüf olduğunu dedi. Pişəvərinin əmisi oğlu Azəri başda olmaqla böyük bir dəstə Ali Sovetə gedib Pişəvərinin ölümünün qəsd olduğunu və bu qəsdin təsdiq olunması üçün Dövlət Komissiyası yaradılmasını tələb etdilər. Ancaq nə komissiya yaradıldı, nə də hadisənin səbəbi aydınlaşdırıldı. Azərbaycan Demokrat Firqəsinin MK-sı sonralar Pişəvərinin cənazəsini gətirib Fəxri Xiyabanda dəfn etdi, qəbrinn üstündə də heykəlini qoydu. Xaricdə olan Cənubi azərbaycanlılar Bakıya gələndə bir qayda olaraq Fəxri Xiyabana gedib Pişəvərinin qəbrini ziyarət edirlər. Bakının küçələrindən birinə Pişəvərinin adı verilmişdir.

Pişəvərinin vəfatından sonra vəziyyət dəyişdi. Fədailərin silahlı məşqləri dayandı. Vətənə qayıtmaq ümidi sual altında qaldı. Mədəni rabitə yolu ilə Bakıya gəlmiş tələbələrin bir çoxu yay tətilindən sonra Bakıya qayıtmadı. Biriyanın Təbrizə gedib ailəsini Bakıya gətirmək tələbi qəbul olunmadı, axırda həbs olunub sürgünə göndərildi. Mübarizə üçün Vətənə qayıtmaq istəyən gənclər bir neçə qatarla Qazaxıstanın Çimkənd vilayətinə göndərildi. Firqəçilərin mübariz əhval-ruhiyyəsini süstləşdirmək üçün xasiyyətcə mülayim, itaətkar Pdiqan firqə sədri təyin olundu. Hamıda bir süstlük, ümidsizlik əhvalı hökm sürməyə başladı. Bəzi adamlar şübhəli hesab edilərək həbs edildi. Bu işdə əqidəsiz və iradəcə zəif adamların şəhadətini təşkil etdilər. Köhnə inqilabçıların etiraz səsini boğmağa başladılar. Bunun üçün də Padiqanı fəaliyyətsizlikdə günahkarlandıran cənubluların etiraz çıxışlarından istifadə edərək daha inanılmış şəxsi Qulam Yəhyanı firqə sədri qoydular. MK-nın Təbrizdə seçilmiş üzvləri, Milli Hökumətin vəzirləri Qulam Yəhyanın əli ilə ictimai işlərdən və firqədən uzaqlaşdırdılar.

Bədnam "Anti-partiya" istilahından istifadə etdilər. Partiya daxilində parçalanma başladı. Yeni rəhbərliyin fəaliyyəti ilə razılaşmayan (İsmayıl Pişnəmazi kimilər) iqtisadi çətinliklə üz-üzə gəldilər. Partiya savadı olmayan, ümumiyyətlə, az savadlı Qulam Yəhyanı partiya kadrı kimi hazırlamaq məqsədilə onu Moskvaya Partiya məktəbinə oxumağa göndərdilər. Qulam Moskvaya gedəndə firqənin sədrliyini Mirqasım Çeşmazərə tapşırdılar. Bakıda Partiya məktəbi qurtaran Çeşmazərə daha heç kəs Qulam Yəhyaya deyilən "savadsız" sözünü deyə bilmədi. Çeşmazər Qulamın əli ilə firqəyə vurulan zərbənin mahiyyətini çox tez başa düşdü. Firqənin əsas kadrlarını ləkələyib firqədən uzaqlaşdırmaq istəyən bəzi şovinist əfsərləri ifşa etdi. Bəd niyyətləri baş tutmayan bu adamlar: - Biz Azərbaycandan getmək istəyirik. Moskvada elmi fəaliyyət üçün daha geniş imkanlar var - deyərək bəhanə gətirib Moskvaya getdilər. Bəzi generallar da Moskvaya "Şərqşünaslıq İnstitutuna" oxumağa getdilər. Bütün bu parçalanmalar Pişəvəri vaxtı olan firqəni zəiflətdi.

**Əlavə məlumat**

Vəli Axundov respublika rəhbərliyinə gəldikdən sonra 1947-ci ildə müəmmalı şəkildə avtomobil qəzasında həlak olmuş və gizli şəkildə Buzovna qəsəbəsindəki vərəm dispanserinin həyətində dəfn edilmiş Cənubi Azərbaycan Milli Hökumətinin başçısı S.C.Pişəvərinin məzarını Fəxri Xiyabana köçürməyə Moskvadan icazə ala bildi. 21 Azər hərəkatının və Cənubi Azərbaycanda Milli Hökumətin 15 illiyi ərəfəsində Azərbaycan Demokrat Firqəsinin MK-sı 1960-cı ilin fevral ayında respublika rəhbərliyindən Pişəvərinin məzarının Fəxri Xiyabana köçürülməsinə, onun seçilmiş əsərlərinin nəşr edilməsinə, Bakı şəhərinin küçələrindən və ya müəssisələrindən birinin S.C.Pişəvərinin adına verilməsinə yardımçı olmasını rica etmişdi. Lakin Sov.İKİP MK SSRİ-İran arasında münasibətləri gərginləşdirəcəyini bəhanə edərək Pişəvərinin seçilmiş əsərlərinin nəşrini və hər hansı küçə və ya müəssisəyə onun adının verilməsini məqsədəuyğun saymadı. Məzarın köçürülməsinə isə V.Axundov razılıq ala bildi və 1960-cı ilin mart ayının 22-də Azərbaycan KP MK Bürosu S.C.Pişəvərinin məzarının Buzovnadan Fəxri Xiyabana köçürülməsi haqqında qərar qəbul etdi. Bu hadisə SSRİ-yə N.Xruşşov rəhbərlik edəndə baş verdi.

V.Axundov SSRİ-yə yenicə rəhbərlik etməyə başlayan L.Brejnevdən, S.C.Pişəvəri üçün nəzərdə tutulan yarımçıq qalmış işlərin həyata keçirilməsi ilə əlaqədar yenidən xahiş edir. L.Brejnev N.Xruşşovdan fərqli olaraq Axundovun bu xahişinə müsbət cavab verir. Beləliklə, Moskvadan razılıq alan V.Axundov 1965-ci ildə Pişəvərinin seçilmiş əsərlərini həm çap etdirdi, həm də Bakı küçələrindən birinin onun adını daşımağa müvəffəq oldu. Bütün bunlar əlbəttə ki, V.Axundovun ortaya qoyduğu siyasi iradə hesabına həyata keçdi.

**Hazırladı: Fuad KAMİLOĞLU**

**Mənbə: "Xatirələrim" - Balaş Azəroğlu**



Fərid MURADZADƏ

# Dağlara qar yağdı



*Dağlara qar yağdı bu gün,*
*birinci qar, birinci qar.*
*Hər bir tərəf ağdır bu gün,*
*Birinci qar, birinci qar.*

Balaca qızım qar haqqındakı bu şeiri "Google" da axtarış edib tapmışdı. Onu elə həvəslə oxuyurdu ki. Mən balaca, məsum, ağsifət, qara göz qızımın qara gözlərinin dərinliyində ağappaq qar təsəvvürü və qardan zövq alan uşaq sevinci görürdüm. Məlumdur ki, son illər ekoloji tarazlığın pozulması, iqlim dəyişkənliyi nəticəsində fəsillər çox anomal keçir. İndi bu yetmiş beş yaşlı şəhərimizdə kibrit qutuları kimi üst-üstə düzülmüş mənzillərdə böyüyən uşaqların (elə böyüklərin də) qar arzuları bitib-tükənməz idi.

Qızım artıq əzbərlədiyi bu şeiri ucadan deyir və gözlərini bir nöqtəyə dikib baxırdı. Məchul nöqtədə balaca qızcığaz deyəsən əsrarəngiz qarlı bir dünya qurmuşdu. Bəzən hər kəsə adi görünə biləcəklər kimlər üçünsə həyatlarının müəyyən vaxtında yaşadıqlarını yenidən göz önünə gətirir, xüsusən də qələm əhli olan insanlar daha çox fərqli yanaşma, fərqli düşüncə tərzinə malik olurlar. İndi bu qar şeiri məni düz otuz beş il əvvələ elə bu qar haqqında şeiri keçdiyimiz ikinci sinifdə oxuduğum o dağ kəndindəki məktəbimizə apardı.

Biz dağlıq ərazidə yaşayırdıq. Qar mənzərəsi bizim təbiətin ən əsrarəngiz mənzərələrindən idi. Hər il payızın əvvəllərində dağlara qar yağardı. Biz sevinə-sevinə qartopu oynayar, qarın üstündə sürüşər, yıxılar, əzilər, üşüyər və bütün bunlardan zövq alardıq. O zamanlar həyat çox gözəl, mənalı, şirin və təbii idi. Texnikanın, internet texnologiyalarının inkişafı, süni intellekt və s indi insanların ülvi hisslərini əllərindən alıb və hissləri sünliləşdirib. O vaxtlar isə hər şey təbii gözəlliyində, təbii axarında idi.

Həmin il nədənsə qar bizim dağlara yağmağa "tələsməmişdi". Qocalar deyirdilər ki, bu yaxşı əlamət deyil. Biz isə əlamət-zad bilməzdik elə uşaq düşüncəsi ilə qarın nə zaman yağacağını həsrətlə gözləyərdik. Hətta hər səhər yuxudan ayılan kimi bəlkə gecə qar yağıb deyə pəncərənin önünə yüyürərdik.

Hava soyuq idi. Deyirdilər ki, qar havasıdır. Biz də həsrətlə bozarmış soyuq havaya baxır və düşünürdük ki , görəsən qar nə vaxt yağacaq. Qarla bağlı hərəmizin bir fikri vardı.

Şər qarışmışdı. Hamı evinə çəkilmişdi. Kənddə lal bir sakitlik vardı. Mənim müəllim atam sabahkı dərs proqramını yazırdı. Biz isə dərslərimizi yenicə hazırlayıb qurtarmışdıq. Anam süfrəni hazırlayırdı. Qəfil qışqırıq səsi gəldi. Atam qələmi dəftərinin üstünə qoyub pəncərənin qarşısına yaxınlaşdı. Qırıqqırıq qışqırıq səsi gəlirdi. Atam eyvana çıxdı. Biz də onun ardınca. İndi səsi daha aydın eşitmək olurdu. Kimsə zil səslə qışqırır, ermənilərin dəstə ilə kəndə tərəf gəldiyini deyirdi. Bir dəqiqə içində kəndin kişiləri səfərbər oldular. Dəhrə, balta yaba və tək-tük ov tüfəngi ilə "silahlanmış"kənd əhli hücuma gələn düşməni qarşılamaq üçün əlverişli mövqe olan "Qala boynu"na tərəf getdilər. Yaşlıları, qadın və uşaqları isə kəndin çıxışındakı qaim-qala evlərə doldurdular.

Mən heç vaxt kəndimizin adamlarını belə silahlanan görməmişdim. Primitiv silahlanmış bu adamların hər biri mənim gözümdə mənfur divləri yenən nağıl qəhrəmanları idilər. Və qəribə də olsa uşaq olmağıma baxmayaraq anidən bir atalar sözü düşdü yadıma: "El bir olsa dağ oynadar yerindən". Bu gün bizim elimiz bir olmuşdu. 1918-ci ilin erməni vəhşiliyini görən yaşlılar tez-tez "Allah, Allah" deyir, dualar edirdilər. Biz isə baş verəcək toqquşmada silahlı igidlərimizi döyüşən şəkildə təsvir edir, filankəsin daha güclü olduğunu deyirdik.

Təxminən qır-qırx beş dəqiqə sonra yenə kəndin gur səsli sakinlərindən biri o taydan qışqıraraq camaatı qorxmamağa çağırır, gələnlərin bizimkilərdən olduğunu söyləyirdi. Hamı rahat nəfəs almağa başlamışdı. Səhərdən səsi çıxmayan qızgəlinlər indi dil boğaza qoymurdular. O gecə bizim kəndə Qərbi Azərbaycandan, öz ata-baba yurdundan qovulan bir neçə azərbaycanlı ailəsi pənah gətirmişdi. Onlardan bir böyük ailə də mənim ana babamgildə qaldılar. İnsanların üzündə dəhşətli əzab vardı. Təxminən yeddi-səkkiz gün ərzində qonaqlar kəndi tərk etdilər, lakin bir ailə müvəqqəti olaraq kənddə qaldı. Ailə başçısı Qafan şəhərindəki evini Bakıdakı bir erməni evi ilə dəyişməli imiş və bu proses gerçəkləşənə, ata özünə iş tapana qədər ailəsi bizim kənddə qalacaqdı.

İki gün sonra sinifimizə Mehriban adlı bir qız gəldi. Bu qız erməni zülmündən qurtulub bizim kəndə pənah gətirmiş ailələrdən birinin, daha doğrusu, evlərini dəyişmək üçün Bakıya getmiş şəxsin qızı idi. O gün hamının diqqəti Mehribanda idi. Müəlliməmiz Mehribanı bizə təqdim etdi və bir müddət qızcığazın bizimlə birlikdə oxuyacağını bildirdi. O, Mehribana xüsusi bir nəvaziş göstərir, onu ürəkləndirirdi. Müəllimiəmizin bu cür yanaşması əslində psixoloji köməklik idi. Bunu sonralar başa düşdüm.

Mehriban çox kədərli və hürkək qız idi. Daim qüssəli olardı. Sinifimizin uşaqları onu başa düşə bilmirdilər. Bəzən qızcığaz ani bir səsdən, qəfil tappıltıdan hürkər, doluxsunar, bəzən də için-için ağlayardı. O, möhkəm ağlamazdı. Elə bil düşməndən gizlənmək üçün daima səslərini qısdıqlarından onda belə bir vərdiş yaranmışdı, ya da onun təbiəti belə idi, bilmirəm...

> Təxminən qır-qırx beş dəqiqə sonra yenə kəndin gur səsli sakinlərindən biri o taydan qışqıraraq camaatı qorxmamağa çağırır, gələnlərin bizimkilərdən olduğunu söyləyirdi. Hamı rahat nəfəs almağa başlamışdı. Səhərdən səsi çıxmayan qız-gəlinlər indi dil boğaza qoymurdular. O gecə bizim kəndə Qərbi Azərbaycandan, öz ata-baba yurdundan qovulan bir neçə azərbaycanlı ailəsi pənah gətirmişdi. Onlardan bir böyük ailə də mənim ana babamgildə qaldılar. İnsanların üzündə dəhşətli əzab vardı.

Havalar daha da soyumuşdu.

Həftə sonu kəndimizə möhkəm qar yağdı. Hər yer ağappaq idi. Sıra dağlar, yalçın qayalar sanki ağ saçlı, ağ saqqalı nurani müdriklər idilər. Sinifimizdəki odun sobası gurhagurla yanırdı. Biz çöldə xeyli qartopu oynamışdıq deyə əllərimiz donmuşdu. İndi isti otaqdakı sobanın içində yanıb özlərini köz edən, az əvvəl adamın üzünə gülən yarmaçalar bizim donmuş vücudumuzu qızdırırdı. Bir anlıq odunlara yazığım gəldi...

Zəng vuruldu. Yaraşıqlı müəlliməmiz içəri girdi. Onu çox istəyərdik. Şirin, məlahətli səsi ilə salam verib hamımızın kefini soruşdu. Partaların arası ilə gəzə-gəzə gəlib Mehribanın yanında dayandı. Zərif əlləri ilə qızın gur saçlarını sığallayıb mülayim səslə, "Bugünkü dərsimiz "Birinci qar" şeiridir və bu şeiri Mehriban oxuyacaq. Buyur, Mehriban",- dedi.

Qız kitabı açıb bir neçə saniyə lal-dinməz vərəqlərə tamaşa edib elə yanğılı bir səslə oxumağa başladı ki, qar şeirini sevinclə gözləyən hamımızın uşaq da olsaq içimiz keçdi. Mehriban elə bil ağı deyirdi. O, həqiqətən də ağlayırdı. Məlumdur ki, insan ağlayanda da, güləndə də sifət mimikası dəyişir. Mehribanın qalın, kömbə dodaqları irəliyə doğru əcaib şəkildə əyilmiş, ağzı eybəcər bir şəkil almışdı. Biz uşaq idik və onun sifət mimikası bizdə gülüş yaratmışdı. Müəllimimiz uşaqları tənbehləyib Mehribanı qucaqladı. Onun da gözləri dolmuşdu. Müharibəyə və onu başladanlara lənət olsun deyirdi bizim gözəl müəlliməmiz. Mehriban sanki anasına sığınmışdı. Tənəffüsdə ondan niyə qar haqqında yazılmış fərəhli bir şeiri ağlayaraq oxuduğunu soruşdum. Azacıq üzü güldü və sonra yenə də tutuldu:

- Sən qəribə oğlansan. Uşaqların içərisində səndən başqa heç kim mənimlə maraqlanmadı. Yəqin insanları az da olsa başa düşürsən. Bilirəm, yaxşı oxuyansan. Deyirlər, sən çox kitab oxuyursan, bəlkə də bu ondan irəli gəlir. Bilirsən, mən bu şeiri oxuyanda bizim dağlar gözümün önünə gəldi. Biz də sizin kimi bəxtəvər idik. Yeni ili, qarın yağmasını, tətilləri, oyunları, valideynlərimizi, əzizlənməyi çox sevərdik. İndi isə biz yerindən-yurdundan qovulmuş fağır bəndələrik. Heç atamız da yanımızda yoxdur. Mənim Sabir adlı bir sinif yoldaşım vardı. Ermənilər onu və bütün ailə üzvlərini öldürdülər. Biz həmişə bir oyanayardıq. Həmişə onunla birlikdə ilk qarı gözləyərdik. Amma bu dəfə Sabir qarı görmədi, heç mən də o dağlara yağan qarı görmədim...

Mən ata-anamın yanında, əmin-aman, rahat bir evdə yaşadığımdan utandım. Mehribanın mimikasına gülən uşaqlarla bir sinifdə oxuduğum üçün, ilk dəfə elə özümün də ani olaraq ona gülməyimdən xəcalət çəkdim. Elə bil Mehriban məndən qat-qat yaşda böyük idi. Dağlara qar yağdı o gün, amma o qar mənə həmişəki kimi sevinc gətirmədi. Mən o ağappaq qarın üstündə məsum Sabirin qırmızı qanını görürdüm. Mehriban gözümdə ucalmışdı. Beş-on gün sonra mən qızılca tutdum, məktəbə getmədim. Sağalıb dərsə gedəndə isə Mehriban sinifdə yox idi. Atası gəlib aparmışdı. Həmin gün yenə də dağlara qar yağmışdı.